AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

3 FEVRAL 2019-cu il BAZAR № 27 (6354) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab Maytripala Sirisenaya

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 1 fevral 2019-cu il.

## Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.20.4-cü yarımbəndində göstərilmiş məbləğin 10 933 900 (on milyon doqquz yüz otuz üç min doqquz yüz) manatı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 2 fevral 2019-cu il.

## Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında uzunmüddətli ticarət-iqtisadi əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında uzunmüddətli ticarət-iqtisadi əməkdaşlıq haqqında 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 29 yanvar 2019-cu il.

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi və "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 374 nömrəli Fərmanının ləğvi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 6, maddə 416; 2004, N 6, maddə 440, N 9, maddə 674; 2005, N 6, maddə 491, N 12, maddə 1102; 2006, N 7, maddə 592, N 8, maddə 659; 2007, N 6, maddə 615, N 9, maddə 869, N 10, maddə 947, N 11, maddə 1106; 2008, N 3, maddə 168, N 8, maddə 719; 2009, N 5, maddə 322, N 12, maddə 983; 2010, N 2, maddə 83, N 3, maddə 185; 2011, N 2, maddə 85, N 6, maddə 508, N 9, maddə 791; 2012, N 9, maddə 852; 2013, N 5, maddə 511, N 11, maddə 1320; 2014, N 12, maddə 1573; 2015, N 2, maddə 127, N 6, maddə 697, N 12, maddə 1474; 2016, N 3, maddə 455, N 6, maddə 1070, N 12, maddə 2057; 2017, N 5, maddə 783, N 10, maddə 1796; 2018, N 6, maddə 1204, N 10, maddə 2012) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 3.1.4-cü yarımbənddə "dövlət daktiloskopik qeydiyyatının keçirilməsini" sözləri "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda dövlət daktiloskopik və genom qeydiyyatının aparılmasını" sözləri ilə əvəz edilsin;

*1.2.* aşağıdakı məzmunda 3.1.4-1-ci yarımbənd əlavə edilsin:

"3.1.4-1. əldə edilmiş daktiloskopik məlumatların, bioloji material və məlumatların müvafiq olaraq ölkə üzrə vahid daktiloskopik məlumat bankında və DNT məlumat bankında saxlanılmasını təmin edir;".

**2.** "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 374 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 7, maddə 514; 2002, N 8, maddə 478; 2010, N 4, maddə 288; 2014, N 9, maddə 1052) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 1 fevral 2019-cu il.

## Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"da dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının 3.4-cü bəndinə uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"da (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, N 9, maddə 486; 2007, N 5, maddə 459; 2008, N 6, maddə 498, N 8, maddə 721; 2015, N 7, maddə 837; 2016, N 8, maddə 1384; 2017, N 3, maddə 353) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 11.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Dövlət Gerbi ("Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanunu ilə müəyyən edilmiş təsvirə uyğun olaraq);";

*1.2.* 142.6-cı bənddə "birləşdirilməli" sözü "birləşdirilməlidir" sözü ilə əvəz edilsin və həmin bənddən "və həmin sənədi təsdiq etmək səlahiyyəti olan şəxsin elektron və ya gücləndirilmiş elektron imzası ilə təsdiqlənməlidir" sözləri çıxarılsın;

*1.3.* 143-cü bənd aşağıdakı redaksiyada verilsin:

"143. Elektron sənədin əsli və surəti "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanır və təsdiq edilir.";

*1.4.* 152-ci bənd aşağıdakı redaksiyada verilsin:

"152. Elektron sənəd dövriyyəsi sistemi tətbiq olunan təşkilatlarda alınan və göndərilən elektron sənədlərin hərəkəti, həmçinin təşkilatdaxili yazışmalar sistem vasitəsilə qeydə alınır. Sistem iştirakçılarına sənədlərin təhvil verilməsi sistem vasitəsilə təsdiq olunur. Elektron sənəd dövriyyəsi zamanı yalnız dərkənarların və göndərilən sənədlərin elektron imza ilə təsdiq edilməsi tələb olunur.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 1 fevral 2019-cu il.

# İcra olunmuş regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri vardır

*Dövlət başçısı deyib: "Uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir"*

**Müasir Azərbaycan yerləşdiyi regionda iqtisadi və siyasi sahədə davamlı islahatlar aparan, sosial problemləri operativ həll edən güclü dövlət kimi tanınır. Ölkə sosial-iqtisadi həyatının bütün sahələrində müasir, modern inkişaf yolundadır. İstər ölkə daxilində, istərsə xarici əməkdaşlığında səmərəli potensialları dövriyyəyə cəlb edən və uğurla irəliləyən dövlət daim yeni inkişaf mərhələsinə qədəm qoyur.**

Siyasi qüdrət və iqtisadi güc müxtəlif təsərrüfat sahələrinin müasir, innovativ inkişafı ilə əldə edilir. Təsadüfi deyil ki, ölkənin dünyanın 10 islahatçı ölkə sırasına daxil olması, Dünya Davos İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, beynəlxalq miqyasda 35-ci, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerdə olması və il ərzində 32 pillə irəliyə getməsi düşünülmüş siyasətin və aparılan səmərəli islahatların, tətbiq edilən iqtisadi modelin müasir tələblərə müvəffəqiyyətlə cavab verməsinin sayəsindədir. Hazırkı dünya ölkələrinin iqtisadiyyatında bir məsələ çox kəskinliyi ilə qarşıda durmaqdadır. Bu, ölkənin zəruri məhsullara ehtiyacını öz istehsalı ilə təmin etməsi və idxalından asılı düşməməkdir. Çünki vacib ixrac həm də bağlılıq deməkdir. Bu səbəbdən də dövlət başçısı iqtisadiyyatın şaxəli inkişafını prioritet elan edib və beynəlxalq iqtisadiyyatın tələblərinə cavab verə bilən, daim təkmilləşən iqtisadi modellə uğurla bu istiqamətdə gedir. Azərbaycan Prezidenti İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransdakı nitqində dünyada artan müharibə, milli-dini toqquşmalar, iqtisadi, siyasi və sosial böhran şəraitində, ölkəmizin uğurla inkişaf etdiyi, tətbiq edilən inkişaf modelinin səmərəliliyi barədə deyib: "Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr çox pis vəziyyətə, idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur". Azərbaycanın nail olduğu bütün iqtisadi göstəriciləri çox müsbətdir. Keçən il ümumi daxili məhsul istehsalında 1,4 faiz, inkişafı prioritet elan edilmiş qeyri-neft sektorunda isə 1,8 faiz, sənayedə istehsal 1,5 faiz, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artmışdır. Bu, məqsədyönlü siyasətlə aparılan islahatlar onu göstərir ki, sənayeləşmə strategiyasının reallaşması öz müsbət nəticələrini verir.



Analitik təhlil təsdiq edir ki, Azərbaycan qədər son 15 il ərzində iqtisadi baxımdan sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyat 3,3 dəfə artmışdır və bu dinamizm davam edir. Təsadüfi deyil ki, cəmi 28 yaşı olan Azərbaycan Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir. Dünyada isə 200-dən çox ölkə var. Rəqabətqabiliyyətliliyin hesablanması bütün sahələri əhatə edir, bu təkcə enerji resurslarına aid deyil. Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, ölkəmiz dünya miqyasında 3-cü yerdə, infrastrukturun səviyyəsinə görə 26-cı yerdədir. Bütün bunlar iqtidar-xalq birliyinin nəticəsi, düzgün iqtisadi modelin bəhrəsidir.

Azərbaycan rəhbərliyi qeyri-neft sektorunun inkişafını prioritet elan etməklə hazırda dünya iqtisadiyyatına müxtəlif təsərrüfat sahələrinin dominant inkişafı ilə inteqrasiya etməyə çalışır. Müasir beynəlxalq iqtisadi proseslərdə operativ və rəqabətqabiliyyətli iştirakçı olmaq üçün ölkə daxilində müvafiq infrastrukturlar mövcud olmalı və innovativ inkişafın tələbini ödəməlidir. Bu istiqamətdə mühüm nailiyyətlərə nail olunub. İndi dünya bazarlarına artıq rəqabətədavamlı məhsullarla çıxan ölkə Avropa və Asiyanın qovşağında çox mühüm hasilatçı, istehsalçı və nəqliyyat mərkəzinə çevrilib. Davam edən qlobalizm prosesində bir mühüm amil də diqqəti daim cəlb edir.

**(davamı 5-ci səhifədə)**

## Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanları vasitəsilə dəniz nəqliyyatı ilə beynəlxalq daşımaların inkişafı haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanları vasitəsilə dəniz nəqliyyatı ilə beynəlxalq daşımaların inkişafı haqqında 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 yanvar 2019-cu il.**

*Umud ŞİRİNOV:*

# Bu, bir daha göstərdi ki, İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir



**Bizə verdikləri yüksək qiymətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığımızı bildiririk. Dövlətimizin başçısının Sərəncamına əsasən "İgidliyə görə" medalı ilə təltif olunmağımız bizi hədsiz dərəcədə sevindirdi.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ukraynada yaşayan soydaşımız Umud Şirinov söyləyib.

"Doğma Vətəndə çox böyük hörmət və diqqətlə qarşılandıq. Azərbaycan Prezidentinin bizə olan diqqətini isə xüsusi qeyd etmək istəyirəm. Bu, bir daha göstərdi ki, İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir. Hansı ölkədə yaşamasından asılı olmayaraq bütün soydaşlarımız Azərbaycan dövlətinin, onun rəhbərinin qayğısını hiss edir. Dövlətimizin başçısının bizim Ukraynada həyatları təhlükəyə məruz qalmış insanları xilas etməyimizi qəhrəmanlıq adlandırmasından qürur duyduq", - deyə U.Şirinov deyib.

Xatırladaq ki, yanvarın sonlarında axşam saatlarında Nikolayev şəhərinin Zayçevskoye kəndi yaxınlığında yük maşınından qopan qoşqu üç nəfərdən ibarət ailənin içərisində olduğu minik avtomobilinə çırpılıb. Qəza nəticəsində minik avtomobili alışıb. Hadisə zamanı yoldan keçən Umud və Sabir Şirinov qardaşları 40 metr aralıda aşmış avtomobili görüblər və onun içindən uşaq çığırtısını eşidiblər. Şirinov qardaşları həyatlarını təhlükə altında qoyaraq yanan avtomobildən uşağı çıxarmağa tələsiblər. Maşının yan şüşələrini sındırsalar da, bir nəticə hasil olmayıb. Sonra arxadan yük yerinin qapısını sındıraraq avtomobilə daxil olublar.

Bu dəfə onlar ağlayan 3 yaşlı uşağı və onun anasını avtomobildən çıxara biliblər. Maşında ön oturacaqların arasında ailə başçısı qalmışdı. Onu çıxarmaq praktiki olaraq qeyri-mümkün idi, alov isə boru vasitəsilə sürətlə qaz balonuna yaxınlaşırdı. Ətrafdakılar qışqırırdılar ki, qaçın, indi partlayış olacaq. Şirinov qardaşları isə aşkar təhlükəyə baxmadan yük yerindən içəri daxil olub, oturacaqları sındırıb və kişini dartıb çıxarıblar. O, huşsuz vəziyyətdə salonda ilişib qalmışdı.

Ailənin hər üç üzvü xilas ediləndən təxminən bir dəqiqə sonra maşındakı qaz balonu partlayıb.

Prezident İlham Əliyev göstərdikləri şəxsi şücaətə görə Sabir və Umud Şirinov qardaşlarının "İgidliyə görə" medalı ilə təltif edilməsi barədə Sərəncam imzalayıb.

**AZƏRTAC**

# III Azərbaycan onkologiya və nüvə təbabəti simpoziumu

*Akademik Cəmil ƏLİYEV:*

## Həkim üçün ən yaxşı mükafat xəstələrin tam şəfa tapmasıdır



**Bu gün Bakıda artıq ənənəyə çevrilmiş növbəti Azərbaycan onkologiya və nüvə təbabəti simpoziumu keçirilir. Azərbaycan Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin (MOM) təşkil etdiyi budəfəki tədbir hər il fevralın 4-də keçirilən Dünya Xərçənglə Mübarizə Gününə həsr olunub. Müasir ümumi onkologiyanın və nüvə təbabətinin aktual problemlərinin, onkologiya qarşısında duran vəzifələrin, həmçinin onların potensial həlli yollarının müzakirə edildiyi nüfuzlu beynəlxalq səhiyyə forumunda Azərbaycan onkoloqları ilə yanaşı, Avstriya, İsveçrə və Türkiyənin aparıcı tibb mərkəzlərinin yüksəkixtisaslı mütəxəssisləri, həmçinin elmi dairələrin nümayəndələri iştirak edirlər.**

Zənnimcə, vətəndaşlarımızın sağlam həyat tərzinin təminatı üçün həkimlərin bir-biri ilə sıx əməkdaşlığı və onkoloji xəstəliklərin müalicəsində məlumat mübadiləsinin aparılması çox böyük əhəmiyyət kəsb edir. Buna görə də bu cür tədbirlərin keçirilməsi maarifçilik nöqteyi-nəzərindən, həmçinin həkimlərimizin daha dərin biliklər əldə etməsi üçün çox vacibdir.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində simpoziumun sədri, Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev bildirib.

Akademik C.Əliyev onkologiya sahəsində yüksək elmi və praktik nailiyyətlərə görə Birləşmiş Millətlər Təşkilatının "Elm və sülh elçisi" fəxri mükafatına layiq görülməsini şərh edərək deyib: "Bu, təkcə mənim yox, Milli Onkologiya Mərkəzinin bütün kollektivinin xidmətidir. Hər bir müəssisənin uğuru onun kollektivinin iş ahəngindən asılıdır. Azərbaycanda onkologiya xidməti böyük və uğurlu inkişaf yolu keçib. Ölkəmizdə xərçəng xəstəliklərinin müalicəsində ciddi tədbirlər həyata keçirilir və bu iş planlı şəkildə davam edir. MOM mövcud olduğu illər ərzində özünün təşəkkül və inkişafında çox mərhələlərdən keçib. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində hazırda Mərkəz ən müasir tibbi texnika ilə təchiz edilib və respublika əhalisinə ixtisaslaşdırılmış onkoloji yardımı həyata keçirən elmi-metodiki və profilaktik işlərin koordinasiyası ilə məşğul olan baş strukturdur. Burada aparılan müalicədən başlıca məqsəd xəstələrin ömrünün uzadılması, onların mümkün qədər tam sağalmasıdır. Həkim üçün ən yaxşı mükafat isə xəstələrin tam şəfa tapmasıdır".

**AZƏRTAC**

## Akademik Cəmil Əliyevə BMT-nin "Elm və sülh elçisi" fəxri mükafatı təqdim edilib




**Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyevə Milli Onkologiya Mərkəzinin Azərbaycanda göstərdiyi çoxillik səmərəli fəaliyyətinə və onkologiya sahəsində bütün dünyada qəbul olunmuş yüksək elmi-praktik nailiyyətlərinə görə Birləşmiş Millətlər Təşkilatının "Elm və sülh elçisi" fəxri mükafatı təqdim edilib.**

AZƏRTAC xəbər verir ki, mükafat Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin (MOM) təşkilatçılığı ilə fevralın 2-də Bakıda keçirilən Ümumdünya Xərçəng Gününə həsr olunmuş III Azərbaycan onkologiya və nüvə təbabəti simpoziumunda təqdim olunub.

Fəxri mükafatı akademik Cəmil Əliyevə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının məsul işçisi, BMT Beynəlxalq Mükafatlar Şurasının Cenevrə ofisinin rəhbəri Mehmet Şükrü Güzel təqdim edib. O, Milli Onkologiya Mərkəzinə və akademik C.Əliyevə yeni nailiyyətlər arzulayıb.

**AZƏRTAC**

## Dünya Xərçəng Gününə həsr olunmuş III Azərbaycan onkologiya və nüvə təbabəti simpoziumu keçirilib





**Bu gün Bakıda Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin (MOM) təşkilatçılığı ilə Ümumdünya Xərçəng Gününə həsr olunmuş III Azərbaycan onkologiya və nüvə təbabəti simpoziumu keçirilib.**

**AZƏRTAC xəbər verir ki, müasir ümumi onkologiyanın və nüvə təbabəti problemlərinin müzakirə olunduğu bu mötəbər beynəlxalq səhiyyə forumunda Azərbaycan onkoloqları ilə yanaşı, Avstriya, İsveçrə və Türkiyənin ən nüfuzlu tibbi mərkəzlərinin aparıcı mütəxəssisləri və elmi dairələrin nümayəndələri də iştirak ediblər. III Azərbaycan onkologiya və nüvə təbabəti simpoziumunun əsas müzakirə mövzularından biri də nüvə təbabətinin müasir vəziyyətinə və perspektivlərinə, eləcə də xərçəngin profilaktikası və müalicəsində tətbiq edilən ən son metodlara dair məruzələrin dinlənilməsi və təcrübə mübadiləsi aparılması olub.**



Simpoziumu giriş sözü ilə Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev açıb. Xərçəng xəstəliklərinin erkən diaqnostikası və müalicəsi üzrə Azərbaycanın aparıcı tibb müəssisəsi olan Milli Onkologiya Mərkəzinin son illərdə əldə etdiyi yüksək nailiyyətlərdən danışan C.Əliyev müasir dünyada onkoloji xəstəliklərin dinamikasının artması faktını təəssüflə vurğulayıb. Akademik bu sahədə müvafiq beynəlxalq strukturların ümumi bəlaya qarşı mübarizənin gücləndirilməsinin və birgə səylərin koordinasiyasının zəruriliyini xüsusi vurğulayıb.

Akademik C.Əliyev qeyd edib ki, əsrin bəlasına qarşı mübarizə işinə Azərbaycan onkoloqları, Milli Onkologiya Mərkəzinin elmi və tibbi personalı da layiqli töhfə verir. Bildirilib ki, tibbin ən ağır, ən məsuliyyətli sahələrindən biri olan onkologiya problemləri daim dövlətimizin diqqət mərkəzindədir. Son illərdə Milli Onkologiya Mərkəzində xərçəng xəstəliklərinin diaqnostikası və müalicəsi üçün hər cür şərait yaradıldığını bildirən akademik Cəmil Əliyev bu nəcib işdə həmişə əhalinin sağlamlığını və sosial rifahını düşünən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müstəsna xidmətlərini xüsusi qeyd edib. O, həmçinin Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın himayəsi ilə Milli Onkologiya Mərkəzində Uşaq Klinikasının inşa edilib istifadəyə verilməsini onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqlara diqqət və qayğının bariz nümunəsi olduğunu bildirib.

Simpoziumda rəhbərlik etdiyi Milli Onkologiya Mərkəzinin Azərbaycanda göstərdiyi çoxillik səmərəli fəaliyyətinə və onkologiya sahəsində bütün dünyada qəbul olunmuş yüksək elmi-praktik nailiyyətlərinə görə akademik Cəmil Əliyevə Birləşmiş Millətlər Təşkilatının "Elm və sülh elçisi" fəxri mükafatı təqdim edilib. Fəxri mükafatı akademik C.Əliyevə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının məsul işçisi, BMT Beynəlxalq Mükafatlar Şurasının Cenevrə ofisinin rəhbəri Mehmet Şükrü Güzel təqdim edib, Milli Onkologiya Mərkəzinə və akademik C.Əliyevə yeni nailiyyətlər arzulayıb.

Tədbirdə çıxış edən Milli Onkologiya Mərkəzi baş direktorunun birinci müavini, tibb elmləri doktoru, professor Əziz Əliyev son illər Azərbaycanda bütün sahələrdə, o cümlədən tibb sahəsində mühüm uğurlar əldə edildiyini diqqətə çatdırıb. Professor öz çıxışında xatırladıb ki, son illər Milli Onkologiya Mərkəzi onkoloji xəstələrin müalicəsi üçün zəruri yeni texnologiyaların istehsalçısı olan dünyanın aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir. MOM ilə Amerikanın bədxassəli şişlərin radioterapiyası üçün müasir texnologiyaları layihələşdirən və istehsal edən "Varian Medical Systems" şirkəti arasında 2014-cü ilin oktyabrında imzalanmış əməkdaşlıq haqqında saziş buna sübutdur. Bununla da, Milli Onkologiya Mərkəzi rəsmi referens-mərkəz statusunu alıb. Sənəd tərəfdaşlar arasında əməkdaşlığın genişləndirilməsinə, müasir texnologiyaların Azərbaycana daha qısa vaxt ərzində çatdırılmasına, xarici mütəxəssislərlə geniş fikir mübadiləsi aparılmasına şərait yaradır. Bununla yanaşı, imzalanmış saziş Milli Onkologiya Mərkəzində onkoloji xəstələrə göstərilən yüksək səviyyəli xidmətin dünyanın aparıcı klinikaları tərəfindən tanınmasını təsdiq edir.



Tədbirdə qeyd olundu ki, 2008-ci ildə ölkəmizdə radionuklid diaqnostika, dörd il sonra radionuklid terapiya şöbələri, 2014-cü ildə Nüvə Təbabəti İctimai Birliyi yaradılıb. 2015-ci ildə nüvə təbabəti ixtisası təsdiq edilib və 2016-cı ildə Nüvə Təbabəti Mərkəzi fəaliyyətə başlayıb. Nəinki Azərbaycanda, hətta regionda ilk və yeganə tibb müəssisəsi olan Nüvə Təbabəti Mərkəzi xərçəng xəstəliklərinin erkən aşkar edilməsi baxımından böyük əhəmiyyət daşıyır. Mərkəzdə pozitron emissiya tomoqrafiya/kompüter tomoqrafiya (PET/KT) cihazı quraşdırılıb. Bu, orqanizmdə hüceyrə mübadiləsini molekulyar səviyyədə göstərməyə imkan verən müasir tibbi diaqnostik görüntüləmə üsuludur. Nüvə Təbabəti Mərkəzinin fəaliyyətinin əsas prinsipi yüksək səviyyədə xidmət təqdim etməkdir. Mərkəzdə işləyən həkimlər, əczaçılar, fiziklər, mühəndislər, kimyaçılar, hətta kiçik və orta heyət xaricdə təhsil alıb və zəngin praktiki biliklərə malikdirlər. Onların sırasında müvafiq sahədə böyük təcrübəsi olan xarici mütəxəssislər də var.

Diqqətə çatdırılıb ki, 2016-cı ildən Avropa Nüvə Təbabəti Assosiasiyası tərəfindən akkreditasiya olunaraq dünyanın 29 ölkəsinin ən mükəmməl mərkəzləri sırasına daxil edilib. Bunun nəticəsi olaraq Milli Onkologiya Mərkəzinə dünyanın müxtəlif ölkələrindən müraciətlərin sayı xeyli artıb. Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Əfqanıstan, Liviya, Suriyanın, eləcə də bir sıra Avropa və Asiya ölkələrindən olan pasiyentlər Nüvə Təbabəti Mərkəzində uğurla müayinədən keçiblər. 2017-ci ildən etibarən mərkəzdə hədəfə yönəlmiş radionuklid müalicələrə başlanılıb. Bir çox qonşu ölkədən xəstələr bu xüsusi təyinatlı Litesium-177 və Actinium-225 müalicəsini almaq üçün ölkəmizə müraciət ediblər.

Simpoziumun sessiyalarında Milli Onkologiya Mərkəzi baş direktorunun birinci müavini, tibb elmləri doktoru, professor Əziz Əliyev, Beynəlxalq Atom Enerjisi Agentliyinin baş inspektoru, professor Françesko Giammarile, MOM-un nüvə təbabəti şöbəsinin müdiri Fuad Novruzov, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının məsul işçisi, BMT Beynəlxalq Mükafatlar Şurasının İsveçrə ofisinin rəhbəri Mehmet Şükrü Güzel, Bern Universitetinin nüvə təbabəti bölməsinin rəhbəri professor Aksel Rominger, Ankara Universitetinin nüvə təbabəti bölməsinin professoru Özləm Küçük və başqaları müxtəlif mövzularda məruzələrlə çıxış ediblər.

**AZƏRTAC**

# Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib

**2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib.**



AZƏRTAC xəbər verir ki, toplantıda Azərbaycan Prezidenti Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, müdafiə naziri, general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbərliyi, veteranlar, Azərbaycan Ordusunda xidmət edən gənclər, Aprel zəfərinin qazanılmasında, həmçinin Naxçıvanın Günnüt və digər strateji yüksəkliklərinin azad edilməsində xüsusi xidmətləri olmuş hərbi qulluqçular, mətbuat və ictimaiyyət nümayəndələri iştirak ediblər.





Toplantıdan əvvəl Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin abidəsi, eləcə də, Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının məzarları ziyarət olunub.

Tədbir iştirakçıları "Heydər Əliyev və Azərbaycan gəncliyi", "Gənclərə qayğı Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir" və "Ordu gəncləri böyük qüvvədir" mövzularında fotosərgilərə baxıblar. Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani qonaqlara sərgilər barədə ətraflı məlumat verib.

A.Qurbani hər il ölkəmizdə geniş qeyd edilən Azərbaycan Gəncləri Gününün ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə təsis olunduğunu diqqətə çatdırıb. Vurğulanıb ki, bu, Ulu Öndərimizin Azərbaycan gəncliyinə ali diqqət və qayğısının bariz nümunəsidir. Prezident İlham Əliyev gənclər siyasətində yeni mərhələnin başlanğıcını qoyub. Gənclərə qayğı bu gün ölkəmizdə milli dövlət siyasətinin ən mühüm istiqamətlərindən birinə çevrilib.

Sonra ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni ifa olunub.

Toplantıda dövlət gənclər siyasəti ilə bağlı videoçarx nümayiş olunub, ümummilli liderimiz Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin gənclərlə bağlı fikirləri səsləndirilib.

Cəbhə bölgəsindən gəlmiş gənc zabit, mayor Orxan Rüstəmov qeyd edib ki, bir gün əvvəl Gənclər Günü münasibətilə keçirilən respublika toplantısında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin proqram xarakterli nitqi hər bir Vətən əsgərinin də döyüş ruhunu, vətənpərvərlik hissini artırıb. Bu gün biz bura Prezidentimizə, Vətənimizə, xalqımıza, dövlətimizə sədaqətimizi bəyan etmək üçün toplaşmışıq.

Azərbaycan Respublikası Prezidentinin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov tədbirdə çıxış edərək hərbçi gənclərimizi Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib. Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan Gənclərinin Gününün təsis edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Gənclərə xüsusi qayğının Azərbaycan Prezidenti İlham Əliyevin də daim diqqət mərkəzində olduğunu qeyd edən Fuad Ələsgərov deyib ki, dövlətimizin başçısının sərəncamları ilə təsdiq edilən gənclər sahəsində strategiya və dövlət proqramlarının məqsədi ölkəmizdə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı potensialının üzə çıxarılmasını dəstəkləməkdir.

Fuad Ələsgərov dövlətimizin başçısının Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında gənclərə tövsiyələr verməsini, fəal gənclərin bir qrupunu mükafatlarla təltif etməsini ölkə gəncliyinə göstərilən yüksək diqqət və qayğının təzahürü olduğunu vurğulayıb. Qeyd olunub ki, bu gün Azərbaycan gəncliyi ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir. Silahlı Qüvvələrimizdə xidmət edən əsgər və zabitlərin böyük əksəriyyəti gənclərdən ibarətdir. Minlərlə gənc əsgər və zabitimiz təcavüzkar Ermənistan ordusuna qarşı döyüşlərdə qəhrəmanlıq göstərib, Vətən uğrunda canlarını və sağlamlıqlarını qurban verib, adlarını müasir hərb tariximizə qızıl hərflərlə yazdırıblar. 2016-cı ilin Aprel döyüşləri zamanı xalqımıza qələbə sevinci bəxş edən döyüşçülərin arasında gənclər çoxluq təşkil edirdi.

Düşmənə qarşı hərbi əməliyyatlarda şücaət göstərmiş qəhrəman əsgər və zabitlərimizlə xalqımızın qürur duyduğunu vurğulayan Prezidentin köməkçisi deyib: "Torpaqları hələ də işğal altında olan Azərbaycan üçün ordu quruculuğu ən vacib məsələlərdən biridir. Bu sahədə indiyədək çox iş görülüb. Azərbaycan hərbi-texniki sahədə dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığı inkişaf etdirib, ordumuz ən müasir silahlar, reaktiv artilleriya və hava hücumundan müdafiə sistemləri, hərbi təyyarələr, gəmilər və digər texnika ilə təchiz olunub. Bununla yanaşı, ölkəmizdə güclü müdafiə sənayesi yaradılıb, 20-dən çox hərbi zavod inşa edilib. Bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsal olunur".

Görülmüş işlərin nəticəsi olaraq bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer aldığını vurğulayan Fuad Ələsgərov bildirib ki, 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin mayında aparılmış uğurlu əməliyyat nəticəsində torpaqlarımızın bir hissəsi işğaldan azad edilib, strateji yüksəkliklər Ordumuzun nəzarəti altına keçib. Böyük məharət və peşəkarlıqla həyata keçirilmiş bu əməliyyatlar Azərbaycan hərbçilərinin qəhrəmanlığını, Ordumuzun yüksək döyüş qabiliyyətini bir daha nümayiş etdirib.

Xüsusi vurğulanıb ki, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsini də həmişə diqqət mərkəzində saxlayır. Son illər xeyli sayda hərbi şəhərcik yaradılıb, hərbi hissələrimizin 80 faizi yenilənib və ya əsaslı təmir edilib. Ötən ilin dekabrında paytaxtın Sabunçu rayonunda 400-dək hərbi qulluqçuya yeni mənzillər verilib. Bu işlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Orduda xidmət edən zabit və əsgərlərin vətənpərvərliyinin vacib amil olduğunu deyən Fuad Ələsgərov yuxarı sinif şagirdlərinin hərbi hissələrə səfərlərinin, qəhrəman əsgər və zabitlərimizlə görüşlərinin, "Əsgərə məktub" və digər sosial tədbirlərin təşkilinin, görkəmli şəxsiyyətlərin, ictimai xadimlərin əsgərlərimizə tez-tez baş çəkmələrinin bu baxımdan önəmini qeyd edib.

Aprel döyüşlərinin qəhrəmanlarından biri, "Azərbaycan Bayrağı" ordenli Tahir Misirxanov işğal altındakı bütün torpaqlarımızın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən tapdağından azad ediləcəyinə və böyük qələbə bayramının qeyd olunacağına əminliyini bildirib. Aprel döyüşləri ilə bağlı xatirələrini bölüşən T.Misirxanov deyib: "Mən xidmət etdiyim hərbi hissənin, birliyin gəncləri adından Prezidentimizi və Müdafiə Nazirliyinin rəhbərliyini, eləcə də bütün toplantı zəfərini təkrarlamağa və Qarabağa böyük qayıdışı təmin etməyə hər an hazırıq və buna qadirik. Hərbçi gənclər böyük qüvvədir və fəxr edirəm ki, mən də onların sıralarındayam".

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirməsi, Azərbaycanın Milli Qəhrəmanı, şəhid mayor Rasim İbrahimovun yolunu davam etdirən oğlu, Hərbi Hava Qüvvələrinin Aviasiya manqasının texniki istismar hissəsinin rəisi kapitan Nizami İbrahimov atasının Vətən uğrunda son gülləsinədək vuruşduğunu, yaralanmasına baxmayaraq, düşmənə təslim olmadığını, qumbaranı sinəsinə sıxaraq bir neçə düşmən zabitini məhv etdiyini və şəhidlik zirvəsinə ucaldığını bildirib. Atasına Azərbaycanın Milli Qəhrəmanı adının ölümündən iki il sonra Ulu Öndərimizin Fərmanı ilə verildiyini xatırladan gənc kapitan onların ailəsinin dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunduğunu deyib.

Şəhid ailələrinə göstərilən qayğıya görə minnətdarlığını bildirən N.İbrahimov deyib: "Yenidən Prezident seçiləndən sonra cənab İlham Əliyevin ilk Sərəncamı şəhid ailələri ilə bağlı oldu. Dövlətimizin başçısı yanvarın 28-də şəhid ailələri ilə görüşdü. Şəhid vərəsələrinə birdəfəlik yardım kartları təqdim olundu, yeni Sərəncam imzalandı. Şəhid ailələrinə verilən Prezident təqaüdünün artırılması haqqında növbəti Sərəncam bizi bir daha sevindirdi".

Aprel döyüşləri zamanı ermənilərin təxribatlarının qarşısını alarkən düşmənin 12 hərbi texnikasını və xeyli canlı qüvvəsini məhv etdiyinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunan, tank əleyhinə divizionun komandiri mayor Mirdamət Bağıyev bildirib ki, nizami Azərbaycan Ordusunun yaradılması ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətlərindən biridir. Ordu dövlətimizin başçısı İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində daha da güclənərək istənilən döyüş əmrini, hücum tapşırığını yerinə yetirməyə hər an hazır olan mütəşəkkil hərbi qüvvəyə çevrilib. Ordu xidmət illərinin İlham Əliyevin prezidentlik dövrünə təsadüf etdiyini vurğulayan zabit deyib: "Dəfələrlə Ali Baş Komandanımızla görüşmək şərəfinə nail olmuşam. Aprel döyüşlərinin ildönümündə Prezidentimizin qəbulunda olduğum günü ömrüm boyu unutmayacağam".

Ötən ilin mayında Günnüt zəfərinin qazanılmasında müstəsna xidmətləri olan Naxçıvanın qəhrəman müdafiəçilərindən kapitan Əlqəm Gözəlov ulu öndər Heydər Əliyevin qurucusu olduğu milli ordumuzun ilk təməl daşının Naxçıvanda qoyulduğunu vurğulayaraq deyib: "Azərbaycan Ordusunda ilk dəfə Naxçıvanda hərbi hissələrə döyüş bayraqları təqdim edilib. Həmin bayraqları Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev təqdim etdi. Naxçıvanda ilk diviziya, ilk Əlahiddə Ümumqoşun Ordu yaradıldı. Bizə Ulu Öndərimizdən miras qalmış azərbaycançılıq məfkurəsi ən kəsərli silahımızdır. Biz bu torpağın, Odlar diyarının övladlarıyıq, gəncləriyik. Bizim bir vətənimiz var. O da azad, müstəqil, yenilməz, gündən-günə çiçəklənən, güclü və qüdrətli Ordusu ilə fəxr etməyə haqqı olan doğma Azərbaycandır".

İştirakçısı olduğu Günnüt əməliyyatı haqqında danışan gənc kapitan deyib: "Bu uğurlu əməliyyat düşmənlərimizi lərzəyə salıb və onlar çətin ki, özlərinə gələ bilsinlər. Mühüm strateji yüksəkliklərin qısa vaxt ərzində azad edilməsi, 11 min hektar ərazinin nəzarətə götürülməsi hərb tarixində görünməyən hadisədir. Bu möhtəşəm qələbənin qazanılmasında fərqlənən hərbi hissənin döyüş bayrağını Bakıya gətirərək Azadlıq meydanında nümayiş etdirdik".

Yunan-Roma güləşi üzrə Avropa və dünya çempionu, Mərkəzi Ordu İdman Klubunun taqım komandiri, leytenant Həsən Əliyev ulu öndər Heydər Əliyevin ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafına da daim böyük qayğı göstərdiyini vurğulayıb. O deyib ki, Ordumuzun idmançıları ölkəmizin şanlı idman salnaməsinə parlaq səhifələr yazıb, olimpiadalarda, mötəbər idman yarışlarında Azərbaycan bayrağını dalğalandırıb, himnimizi səsləndiriblər. Müdafiə Nazirliyinin rəhbərliyi orduda bədən tərbiyəsi və idmanın inkişafına, kütləviliyinə ciddi diqqət yetirir. Bu sahədə Mərkəzi Ordu İdman Klubunun xidmətləri danılmazdır. Hərbçi-idmançılarımız Beynəlxalq Hərbi İdman Şurasının xətti ilə keçirilən beş ümumdünya hərbi idman oyununda 78 qızıl, 64 gümüş və 98 bürünc medal qazanıblar.

Hərbi Dəniz Qüvvələrində xidmət edən baş leytenant Ariz Qəhrəmanov bildirib ki, digər qoşun növləri kimi, Hərbi Dəniz Qüvvələrimiz də Ümummilli Liderimizin sayəsində yenidən formalaşıb və hazırda mütəşəkkil qüvvəyə çevrilib. Döyüş gəmilərinin və qüvvələrinin iştirakı ilə keçirilən son irimiqyaslı təlimlər bir daha göstərdi ki, hərbi dənizçilərimiz istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdirlər.

Ariz Qəhrəmanov deyib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Puta əsas baza məntəqəsinin və bazada xidmət edən, əksəriyyəti gənclərdən ibarət zabit, miçman və çavuşların sosial-məişət və mənzil şəraitinin yaxşılaşdırılması üçün tikilən yaşayış binalarının və digər hərbi obyektlərin açılışında şəxsən iştirakı hərbi dənizçilərdə böyük ruh yüksəkliyi yaradıb.

Qeyd edilib ki, 2015-ci ildən başlayaraq keçirilən Beynəlxalq Ordu Oyunlarının "Dəniz kuboku" müsabiqəsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin birinci yeri tutması mühüm nailiyyətdir. Baş leytenant hərbi dənizçilərin qarşıya qoyulan vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə, digər qoşun növləri ilə birlikdə hərb tariximizə parlaq səhifələr yazacaqlarına əminliyini bildirib.

Ötən il keçirilən möhtəşəm hərbi paradlarda öz məharətlərini göstərən təyyarəçi kapitan Məzahir Səfərov 2001-ci ilin avqustunda indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi məzunlarının ilk buraxılışında Ulu Öndərimizin xeyir-duasını məmnunluqla xatırladıb. Hazırda Azərbaycanın milli şahinlərinin əsl peşəkarlıq xüsusiyyətlərinə malik olduqlarını vurğulayan M.Səfərov deyib ki, pilotlarımız hərbi paradlarda peşəkarlıqlarını bir daha nümayiş etdirərək Ulu Öndərimizin arzularını gerçəkləşdiriblər. "Fəxr edirəm ki, mən də Azərbaycanın milli şahinlərindən biriyəm. Lələtəpə istiqamətində erməni işğalçılarına qarşı əks-hücum əməliyyatlarında qəhrəmanlıqlar göstərərək şəhidlik zirvəsinə ucalmış milli pilotlarımız Təbriz Musazadə, Urfan Vəlizadə və Əbu Bəkr İsmayılovun intiqamını almaq, işğal altındakı bütün torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir və zəfər yürüşünə hazırıq", - deyə pilot bildirib.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı Tapdıq Mansurov xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı Liseydə təhsil almaqdan, yeniyetmə vaxtlarından əsgər çəkməsi, uniforma geyinməkdən qürur duyduğunu qeyd edib. Hərbi Liseyin yetirmələri arasında 20-dən çox general və admiralın, 10-dan çox Milli Qəhrəmanın olduğunu vurğulayan kursant deyib: "Biz Heydər Əliyevin arzuları, Prezident İlham Əliyevin ümidləri və Ordumuzun gələcəyiyik. Mən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almağımla qürur duyur, zabit olacağım günü səbirsizliklə gözləyirəm".

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov tədbirdə çıxış edərək Azərbaycan Gəncləri Günü münasibətilə hərbçi gəncləri təbrik edib. Ordumuzun döyüş qabiliyyətindən danışan müdafiə naziri bildirib ki, Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinin artırılmasının əsasında dövlətimizin və onun rəhbərliyinin yüksək diqqət və qayğısı dayanır. Hərbi büdcəmiz ildən-ilə artır, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Müdafiə naziri deyib ki, son illərdə ölkəmizin dinamik iqtisadi inkişafı və ordumuzun güclənməsi dövlətimizin başçısının uğurlu siyasətinin nəticəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib.

Sonra Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub. Müraciətdə deyilir: "Əmin ola bilərsiniz ki, biz həqiqətən Vətən uğrunda, torpaq uğrunda canımızdan keçməyə, işğal altında olan torpaqlarımızı azad etməyə, ərazi bütövlüyümüzü təmin etməyə hər an hazırıq. Hərbi paradlarda cüzi hissəsini nümayiş etdirdiyimiz ən müasir hərbi texnikalarımız, zenit-raket komplekslərimiz, artilleriya qurğularımız, aviasiya vasitələrimiz və ilk növbədə, Azərbaycan əsgərinin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, peşəkarlığı, yüksək vətənpərvərlik hissi bunu deməyə əsas verir. Biz Sizin arzularınızı gerçəkləşdirəcək, digər əzəli torpaqlarımızı işğaldan azad edərək orada bayrağımızı dalğalandıracağıq".

Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı Ali Baş Komandana ünvanlanan "Zəfər marşı"nın ifası ilə başa çatıb.

**AZƏRTAC**

# Vətəndaş cəmiyyətinin formalaşmasında gənclər təşkilatlarının rolu

**Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxıb.Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Bu əlamətdar tarixi gün gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.**

1995-ci ildən fəaliyyət göstərən vahid gənclər platforması olan Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası ölkənin aparıcı gənclər təşkilatıdır. Təşkilata rəhbərlik edən **Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının Sədri Məryəm Məcidova** dedi ki, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (National Assembly of Youth Organizations of the Republic of Azerbaijan-NAYORA) öz ətrafında 128 gənclər təşkilatını birləşdirən ölkə gəncləri və təşkilatların yeganə konfederativ sturukturu, vahid koordinasiya və əməkdaşlıq mərkəzi olmaqla onların beynəlxalq inteqrasiyasını təşkil və təmin edən qurumdur.

Təşkilatın məqsədi gənclərin bilik və bacarıqlarının Azərbaycan dövlət müstəqilliyinin möhkəmlənməsinə, beynəlxalq aləmdə layiqli yer tutmasına, demokratik quruculuq işlərinə yönəltməkdir. 1997-ci ildən Avropa Gənclər Forumu, Türk Dünyası Gənclər Birliyinin tam hüquqlu üzvü, 2002-ci ildən BMT-nin İqtisadi və Sosial Şurasının məşvərətçi statuslu üzvü, İslam Konfransı Təşkilatının Gənclər Forumunun həmtəsisçisi və tam hüquqlu üzvü, Dünya Azərbaycanlı Gənclər Birliyi, "Böyük İpək Yolu" beynəlxalq gənclər təşkilatının həmtəsisçisi, 2014-cü ilin dekabr ayında keçirilən seçkilərdə Avropa, Asiya, Avstraliya, Afrika və Amerika qitələrindən 120 gənclər platformasını birləşdirən Dünya Gənclər Assambleyasının tamhüquqlu üzvüdür.

Bizim missiyamız vətəndaş cəmiyyətinin formalaşmasında gənclər və gənclər təşkilatlarının rolunun artırılmasından ibarətdir. Məqsədimiz isə NAYORA tərkibinə daxil olan uşaq və gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək, onların inkişafı üçün şərait yaratmaq, üzv təşkilatların milli, regional və beynəlxalq səviyyədə maraqlarının həyata keçirilməsinə çalışmaq, gənclərin problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində birgə iş aparmaq, gənclər və onların təşkilatları arasında ümummilli məsələlərin həllində həmrəyliyə nail olmaqdır.

NAYORA öz fəaliyyətində gənclərin bilik və bacarığının Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə, beynəlxalq aləmdə layiqli yer tutmasına, demokratik dövlət quruculuğu işlərinə yönəltməyi özünün əsas vəzifəsi hesab edir. NAYORA qarşısında qoyduğu məqsəd və vəzifələri həyata keçirmək üçün gənclərin problemlərinin həlli ilə bağlı müxtəlif proqramlar, layihələr hazırlamaq və müvafiq dövlət orqanlarına, beynəlxalq təşkilatlara və fondlara təqdim etmək; gəncləri maraqlandıran məsələlər üzrə müxtəlif forma və mövzularda tədbirlər keçirmək; gənclərə, onların təşkilatlarına maddi və mənəvi yardım etməyə çalışmaq; müştərək və ya kiçik müəssisələr, asudə vaxt və sosial xidmət mərkəzləri, müxtəlif xeyriyyə tədbirləri, marafonlar, uduş və xeyriyyə-idman lotereyaları təşkil etmək; kütləvi informasiya vasitələri təsis etmək; respublikada və xarici ölkələrdə keçirilən tədbirlərdə üzvlərin iştirakına kömək etmək; gənc liderlər üçün müxtəlif təcrübə kursları təşkil etmək; xarici ölkələrdə fəaliyyət göstərən gənclər təşkilatları, beynəlxalq gənclər qurumları ilə əlaqələr yaratmaq, onlarla nümayəndələr mübadiləsini həyata keçirmək və s. kimi fəaliyyət formalarından istifadə edir.

Ölkədə siyasi stabilliyin və iqtisadi inkişafın olması, innovativ infrastruktur və investisiya layihələrinin həyata keçirilməsi, sosial siyasət sahəsində, xüsusən də ölkənin prioritet istiqamətlərindən biri olan gənclər siyasəti sahəsində uğurların əldə olunması üçün münbit zəmin yaradır.

NAYORA 24 illik fəaliyyəti dövründə tərəfdaşları ilə əməkdaşlıq əsasında Azərbaycanın ictimai-siyasi həyatında mühüm rola malik vətənpərvər gənclərin yetişdirilməsi, onların beynəlxalq tədbir və proqramlarda, eləcə də dünyanın mühüm gənclər platformalarının qərarlarının qəbul olunma prosesində iştirakının təmin edilməsində yaxından iştirak edib.

Dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar ötən il sentyabrın 15-də "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Proqramda gənclərin hərtərəfli inkişafı üçün münbit şəraitin formalaşdırılması, gənclərin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, gənc alim və mütəxəssislərin sosial müdafiəsinin gücləndirilməsi, gənc alim və tədqiqatçıların fəaliyyətinin dəstəklənməsi və gənclərin elmə həvəsləndirilməsi, ali və orta ixtisas təhsili müəssisələrində tələbələrin özünüidarəetməsinin gücləndirilməsi, onların ideya və təşəbbüslərinin dəstəklənməsi eyni zamanda, sahibkarlıq və məşğulluq imkanlarının artırılması, onlar arasında ixtisas və peşə seçimi, gənclərin beynəlxalq mübadilə və mədəniyyətlərarası dialoqda iştirakının dəstəklənməsi, regionlarda yaşayan gənclərin təhsil, məşğulluq, ictimai fəaliyyətlərinin və mədəniyyət və idman sahəsində imkanlarının genişləndirilməsi nəzərdə tutulub.



Azərbaycan dövlətinin həyata keçirdiyi proqram və layihələr, eyni zamanda, ölkəmizin zəngin resursları gənclərimizin inkişafı üçün müvafiq şəraiti yaradır. İndi əsas vəzifə gənclərin bu imkanlardan layiqincə yararlanıb, həm öz inkişafını təmin etmək, həm də dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmaq üçün ciddi iradə ilə çalışmalıdır. Hər bir gənc öz yolunu müstəqil Azərbaycan Respublikasının həyat yolu kimi qəbul etməlidir.

Azərbaycan Respublikası Gənclər Təşkilatları 2018-ci il ərzində müxtəlif istiqamətlərdə proqramlar, layihələr, konfranslar və kampaniyalar həyata keçirmişdir.

Bunlara nümunə olaraq "Azərbaycanda qız övladlarının dəyərinin təbliğ edilməsi üçün gənclərin maarifləndirilməsi" layihəsini, Lənkəran şəhərində 3 gün müddətində keçirilmiş "Gənclər Gender Bərabərliyi Məqsədi Uğrunda" layihəsini, "Azərbaycan Könüllülük Xidməti" çərçivəsində baş tutmuş mübadilə proqramlarını, Gənc Elçilər proqramı çərçivəsində baş tutmuş infoturları, Gəncə şəhərində keçirilmiş "Atalar və qızlar" festivalını, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş, Gəncə, Biləsuvar və Lənkəran şəhərlərində keçirilmiş "AXC-nin 100 illiyinin qeyri-formal təbliği" layihəsini, Şamaxı şəhərində keçirilmiş "Gənclər təşkilatlarının 2019-cu il üçün fəaliyyət strategiyasının planlaşdırılması" konfransını misal göstərə bilərik. Habelə, "Qanlı Yanvar Faciəsi", "Xocalı Soyqırımı" "Qadınlara və qızlara qarşı zorakılığa son" və s. kimi onlayn kampaniyalar da NAYORA tərəfindən geniş auditoriyaya uğurla çatdırılmışdır. Bundan əlavə, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası 50-dən çox beynəlxalq layihə və tədbirlərdə yüksək səviyyədə təmsil olunmuşdur.

**Bəybala BƏYBALAYEV, "Respublika".**

# Gənclər inkişafın hərəkətverici qüvvəsidir

**"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir"** Heydər Əliyevin gənclər haqqında dediyi bu fikirləri gənclərə olan dövlətin dəstəyini açıq şəkildə göstərdi. Ulu öndər, ümummilli lider Heydər Əliyev gənclərin ölkənin sosial-iqtisadi inkişafında rolunu artırmaq, gənclərin dünyada cərəyan edən proseslərdə iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə institusional reformalara start verdi. Gənclərə etibar edən ulu öndər onlarla ünsiyyətin tərəfdarı idi və mütəmadi görüşlər keçirməklə, onların düşüncəsini, fikirlərini və təkliflərini öyrənir, müvafiq addımlar atırdı. Elə gənclərlə bu cür ünsiyyətin qurulması üçün ilk dəfə ümummilli liderimiz Heydər Əliyev 1995-ci ildə gənclərin forumunun keçirilməsi haqqında təklif irəli sürdü və bundan sonra 1996-cı ildən başlayaraq, gənclərlə bağlı forumlar təşkil edildi. 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi.

1997-ci il 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi ulu öndər Heydər Əliyevin sərəncamı ilə təsdiq olunub. Bu, ulu öndər, ümummilli lider Heydər Əliyevin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral Azərbaycan gənclərinin günü kimi təntənəli şəkildə qeyd olunur. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. 1996-cı ildən başlayaraq Azərbaycanda Gənclər Günü qeyd olunandan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başladı. Dünyada yalnız 1998-ci il avqustun 8-i 12-si tarixlərində Lissabonda keçirilən Konfransda BMT-nin qərarı ilə avqustun 12-si Gənclər Günü elan edilmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. 2003-cü ildən sonra Azərbaycanda gənclər siyasəti daha da şaxələnərək, yeni verilmiş qərarların fonunda mahiyyətcə yeni mərhələyə yüksəldi. **"Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram"** - Prezident İlham Əliyev söylədiyi bu fikirlərlə ulu öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini təsdiq etdi. Prezident cənab İlham Əliyev **"Bugünkü gənc sabah ölkəmizi idarə edəcək"** tezisi gənclərə etimad və münasibətin əyani təzahürü oldu. Bunlarla yanaşı, gənclərin hərtərəfli inkişafı üçün Gənclər Mərkəzinin, Gənclər Fondunun və Gənclər Evinin yaradılması, gənc ailələrin dəstəklənməsi, ipoteka şərtlərinin sadələşdirilməsi və s. gəncliyin daha həvəslə çalışmasına və dövlətçiliyin müdafiəsində fəal iştirakına əlavə stimul verdi.

2017-ci il 15 sentyabr tarixli sərəncamla Respublikamızda "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının qəbul edilməsi gənclər üçün yeni perspektivlərin reallaşmasına təkan verdi. Heç kəsə sirr deyil ki, hər bir dövlətin və millətin inkişafı üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır.

Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Dövlət gənclər siyasəti - gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektiv reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir.

Bu gün cənab Prezident tərəfindən həyata keçirilən gənclər siyasəti yeni mərhələsini yaşayır. Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf, təbii ki, gənclər üçün yeni imkanlar açır. Dövlətimizin siyasətində gənclər məsələləri mühüm yer tutur. Azərbaycanın maliyyə-iqtisadi imkanları artdıqca, bütün sahələr inkişaf edib, gənc nəsil bu prosesdən kənarda qalmayıb və gəncliyin inkişafı, yüksək intellektli, vətənpərvər gəncliyin yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət və qayğı göstərilməsindən ibarətdir.

Azərbaycan gəncliyi öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, ölkədə gedən proseslərin önündə olmuşdur. Gənc nəsil istər sovet dövründə, istərsə də müstəqillik illərində ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak etmişdir. Minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil etmiş, idmançılarımızın qələbələri sayəsində Azərbaycan bayrağı xarici dövlətlərdə yüksəlmişdir. Gənclər mədəniyyətlərarası dialoqun aparılmasında, beynəlxalq əməkdaşlığın inkişafında fəal olmuşlar. Bunun nəticəsində müxtəlif dövlətlərdə və beynəlxalq qurumlarda ölkəmiz daha yaxından tanınmış, onun tarixi, mədəniyyəti və bu günü haqqında geniş məlumatlar çatdırılmışdır.

Bir sözlə, bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş Azərbaycan gəncliyi ulu öndər, ümummilli lider Heydər Əliyev ideyalarına sadiqdirlər və Prezident İlham Əliyevin ətrafında sıx birləşərək uğurlu daxili və xarici siyasəti dəstəkləyirlər. Biz gənclər bundan sonra da dövlətimizin parlaq gələcəyi naminə, ərazi bütövlüyümüzün bərpası və qorunması, xalqımızın rifah səviyyəsinin yüksəldilməsi, müstəqil Azərbaycanımızın inkişafı və tərəqqisi üçün yorulmadan, əzmlə, böyük səylə çalışacayıq. Bütün gənclərimizi bu əlamətdar gün münasibətilə təbrik edir və gələcək fəaliyyətlərində uğurlar arzu edirəm.

**Pərviz USUBOV,**
**Dövlət Statistika Komitəsi Siyahıyaalma Qrupu - aparıcı iqtisadçı.**

# Müqəddəs adı uca tutmaq böyük şərəfdir



Ölkəmizdə son illərdə neft kapitalını insan kapitalına çevirməyi qarşıya məqsəd qoyan möhtərəm Prezidentimiz İlham Əliyev olduqca mühüm qərarlar qəbul etməklə artıq bu amalına nail olmuşdur. Bu gün vətənimizin hansı guşəsinə nəzər salsaq, orada bir yüksəliş, inkişaf və tərəqqi görərik. Gündən-günə vüsət alan iqtisadiyyatımız, təhsilimiz və mədəniyyətimiz bizə əsas verir ki, ümummilli liderimiz, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevi böyük qürur və iftixarla yad edək. Bəli, məhz onun uzaqgörən, məqsədyönlü, ardıcıl siyasətinin nəticəsidir ki, Azərbaycan bütün sahələrdə geniş üfüqlər fəth edir, cəmiyyətdə yaşayan hər bir insana diqqət və qayğı günbəgün artır. Böyük şəxsiyyətin geniş şəkildə davamı olaraq, təhsilə, müəllimə, müstəqil Azərbaycanın sabahı olan gənclərə böyük diqqət, tükənməz qayğı, sonsuz məhəbbət bu gün ölkə başçısı cənab İlham Əliyevin siyasətinin əsas qayəsidir.

Məhz bu siyasəötin nəticəsində son illərdə ölkədə istedadlı uşaq və gənclərin səmərəli təhsil almasını təmin etmək məqsədilə yeni tipli tədris müəssisəsinin şəbəkəsi genişləndirilmiş, təmayül sinifləri formalaşdırılmışdır.

Dövlətimizin bu sahəyə göstərdiyi qayğıdan bəhrələnməklə uğurları günbəgün artıran təhsil ocaqları bu günü dünənindən daha yaxşı göstəricilərlə başa vurmaq, göstərilən etimadı şərəflə doğrultmağa səy göstərirlər.

Belə kollektivlərdən biri də ölkəmizin şimal-qərb bölgəsində—Balakən rayonunda fəaliyyəti nəinki, rayonda, həmçinin bölgədə ən qabaqcıl təhsil müəssisəsi hesab olunan Humanitar və Texniki təmayüllü liseyin uğurları olduqca çoxdur. **Balakən Rayon Təhsil Şöbəsinin müdiri, bacarıqlı təhsil təşkilatçısı Vahid Əliyevlə** söhbətimiz zamanı öyrəndik ki, Humanitar və Texniki Təmayüllü Liseyin son illərdə ölkə miqyasındakı liseylər arasında qabaqcıllığı əldən verməməsinin başlıca səbəblərindən biri də kollektivin bütün üzvlərinin işə bəslədiyi böyük məsuliyyət və can yanğısıdır. Liseydə olarkən bu deyilənlərin bir daha şahidi olduq.

Öyrəndik ki, bu qabaqcıl təhsil ocağına öz işinin mahir bilicisi olan, "Tərəqqi" medallı Şaban Abdullayev rəhbərlik edir. Uzun illərdir ki, sadə əməyi, lakin böyük işgüzarlığı və işə peşəkar münasibəti nəticəsində ad-san qazanmış Şaban müəllim nəinki doğulub boya-başa çatdığı Balakən rayonunda, eləcə də bütün bölgədə nümunəvi pedaqoq kimi tanınır.

Rahbərlik etdiyi təhsil müəssisəsinin uğurlarından ürəkdolusu danışan direktor bildirdi ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə tədris ilinin "Ümumi təhsildə keyfiyyət ili" elan edilməsi fəaliyyətlərinin ümumi təhsilin keyfiyyətinin artırılması istiqamətində birləşdirilməsini təmin etməyə xidmət edir.

Təhsil Nazirliyinin bu əmrini əldə rəhbər tutaraq rayonun Humanitar və texniki təmayüllü liseyinin kollektivi tədris ilində təhsilin keyfiyyətini yüksəltməyi, daha keyfiyyətli təhsil verməyi qarşısına məqsəd qoymuşdur. Tədris ilinin əvvəlindən hədəflər bir qədər konkretləşib. Belə ki, bu il əvvəlki illərdə qazandığımız uğurları bir qədər də artırmağı, təhsildə keyfiyyəti yüksəltməyi, o cümlədən də IX və XI sinif şagirdlərinin imtahan nəticələrini yüksəltməyi qarşıya məqsəd qoymuşuq.

Liseydə bu il X siniflərdəki 71 şagird üç təmayüldə - texniki-riyaziyyat iqtisadiyyat (21 şagird), texniki-təbiət (26 şagird), humanitar (24 şagird), XI siniflərdə də şagirdlər texniki (20 şagird), texniki-təbiət (20 şagird), humanitar və riyaziyyat-iqtisadiyyat (20 şagird) olmaqla üç təmayüldə təhsillərini davam etdirirlər. Bu siniflər ilin əvvəlindən şagirdlərin, valideynlərin arzu və istəkləri nəzərə alınmaqla komplektləşdirmişdir. Bu siniflərdə dərs deyəcək müəllimlər də şagirdlərin arzularına uyğun olaraq seçilib.

Lisey rəhbərliyi tərəfindən ötən tədris ilində 4 dəfə sınaq imtahanları aparılmış, 16.11.2018-ci il tarixdə sınaq da uğurla keçirilmişdir. VII-IX siniflərdəki sınaqlar bütün əsas fənləri, X-XI siniflərdəki sınaqlar isə qruplar üzrə olan fənləri əhatə edir. Sınaqların nəticələri hər dəfə şagird, müəllim və valideynlərlə birgə müzakirə olunmuşdur. Lisey rəhbərliyi tərəfindən sınaqlarda ən yaxşı nəticə göstərən şagirdlərimiz fəxri fərmanla, ən yaxşı nəticə göstərən sinfimiz isə "Keçici bayraq"la təltif olunub ki, qaliblər VII, VIII, IX sinifləridir. "Keçici bayraq" növbəti sınaqda ən yaxşı nəticə göstərən sinfin ən yaxşı nəticə göstərən şagirdinə verilir ki, sinfin görkəmli yerində saxlansın. Bu da şagirdlərimizi daha həvəslə çalışmağa sövq edir. 02.06.2018-ci il tarixdə keçirilən sınaqda VII siniflərdən ümumilikdə 13 şagird, VIII siniflərdən ümumilikdə 26 şagird, IX siniflərdən ümumilikdə 19 şagird olmaqla cəmi 58 şagird bütün fənlərdən "4" və "5" qiymət almışdır. Bu nailiyyətə görə "Keçici bayraq" VIIIt[1] sinfinə verilib. VII-IX siniflərdən İsgəndərli Leyla Fazil qızı bütün dörd sınaqdan, Həsənquliyeva Nübar Novruz qızı üç sınaqdan, Rəhmanova Rəqsanə Hacıxan qızı iki sınaqdan, Bürcəliyeva Fatma Qəhrəman qızı iki sınaqdan, Bazarov Hacı Şamil oğlu - bir sınaqdan, Mehdiyeva Zülfiyyə Rasim qızı bir sınaqdan, Göylərov Kənan Məhəmməd oğlu bir sınaqdan, Varşayev Şamil Elşad oğlu bir sınaqdan bütün fənlər üzrə "5" qiymətlər almışlar. "Uğurdan gələcəyə" adlı II Qrand müsabiqəsinin layihəsində iştirak edən, Quba, Daşkəsən və Balakən rayonlarının IX sinfin buraxılış imtahanlarında ən yaxşı nəticə göstərən 6 şagirddən ən yüksək bal toplayan İsgəndərli Leyla Fazil qızı liseyimizin şagirdidir.

Ötən tədris ilində şagirdlərimiz bir çox Respublika əhəmiyyətli yarışlarda iştirak edib uğurlar qazanmışlar. Belə ki, 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə keçirilən "Mən və hüquqlarım" mövzusunda ənənəvi uşaq rəsm müsabiqəsində iştirak etmiş VIII və IX sinif şagirdləri Qafarov Sənan Vüqar oğlu II yerə, Balayeva Firəngiz Azad qızı həvəsləndirici yerə layiq görülmüşdür. 13-15 dekabr tarixlərində keçirilmiş "Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik" müsabiqəsində XIt[2] sinif şagirdləri İbadova Xatirə Fazil qızı və Quradayeva Əminəxatun Mübariz qızı I yerə layiq görülmüşlər. Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu tərəfindən Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illiyinə və milli lider H.Əliyevin anadan olmasının 95-ci il dönümünə həsr olunmuş Azərbaycan müasirlik və gələcəyin qovuşuğunda mövzusunda keçirilmiş müsabiqədə XI sinif şagirdləri Hacıyeva Altunay Nizami qızı, "Heydər Əliyev və azərbaycançılıq", Kazımova Leyla İmran qızı "Azərbaycanı tanıyaq" mövzusunda, Şindiyeva Nigar Elşad qızı "Azərbaycan mədəniyyəti və incəsənəti" mövzusu ilə iştirak etmişdir. 22-25.02.2018-ci il tarixlərində Bakı şəhəri Xətai Sənət Mərkəzinin keçirdiyi Xocalıya həsr olunmuş "Şəhid şəhər" Respublika uşaq rəsm müsabiqəsində fəal iştirakına görə liseyin 4 gənc rəssamı, 14-18.03.2018-ci il tarixlərində "Yurdumuza bahar gəlir" Respublika uşaq rəsm müsabiqəsində isə 3 şagirdimiz təltif edilmişdir.

Ümumdünya Poçt İttifaqı və Təhsil Nazirliyi ilə birgə təşkil olunmuş müsabiqədə "Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli şəxsiyyətləri" mövzusu ilə XI sinif şagirdləri Bazarov Nurlan Nəriman oğlu, Hacıxanova Şəhla Aydın qızı, Məmmədova Dilbər Mehman qızı qatılmışdılar. Bazarov Nurlan Nəriman oğlu 19.05.2018-ci il tarixdə Bakışəhərində müsabiqənin IV yer mükafatçısı kimi diplomla təltif olunub.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə I qrant müsabiqəsi-STEM Azərbaycanda" layihəsi çərçivəsində həyata keçirilən "Azərbaycanda STEM müəllimləri" Respublika müsabiqəsində iştirak edən Əfəndiyeva Fatma Musa qızı öz şagirdləri Quradayeva Əminəxatun Mübariz qızı - XI sinif, Quradayeva Havva Mübariz qızı Qafarov - XI sinif, Sənan Vüqar oğlu - XI sinif, İbadova Şəhla Fuad qızı, Sərkərova Fidan Rasim qızı - III yerə layiq görülmüşlər.

Məktəblilərimizdən 15 nəfəri Şəki şəhərində keçirilən "Əlaçı" televiziya verlişində iştirak etmiş, onlardan beş nəfəri Bakı şəhərindəki "Bayraq Meydanı"nda keçirilən final mərhələsində uğurla çıxış etmişdir. Kollektivimizin ən böyük uğurlarından birini də qeyd etmək istərdim.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Şəki, Qax, Zaqatala və Balakən rayonlarının ali və orta məktəblərinin tələbələri və yuxarı sinif şagirdləri arasında keçirilən və 12 noyabr - Konstitusiya Gününə həsr olunmuş "Hüquqi dövlətin əsasları" mövzusunda hüquq olimpiadasına yekun vurulub.

Olimpiadanın təşkilat komitəsindən verilən məlumata görə, Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə çıxış edən Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunan ilk milli Konstitusiyanın dövlətçiliyimizin formalaşması və inkişafında böyük əhəmiyyəti olduğunu bildirib. Qeyd olunub ki, ilk milli Konstitusiyanın qəbulundan ötən müddət ərzində Azərbaycanda insan hüquq və azadlıqları tam bərqərar olub, demokratik və hüquqi dövlət quruculuğu sahəsində böyük uğurlar qazanılıb, mühüm qanunvericilik aktları qəbul edilib.

İcra hakimiyyətinin başçısı hüquq olimpiadasının Zaqatala rayonunda təşkilinə görə Konstitusiya Məhkəməsinin rəhbərliyinə və əməkdaşlarına minnətdarlığını bildirib.

Konstitusiya Məhkəməsinin Konstitusiya hüququ şöbəsinin müdiri Dürdanə Məmmədova Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin müraciətini iştirakçıların diqqətinə çatdırıb.

Hüquq olimpiadasının nəticələrini elan edən Dürdanə Məmmədova bildirib ki, builki olimpiadada Şəki və Zaqatalada fəaliyyət göstərən 2 universitet filialının, 3 kollecin tələbələri, Şəki, Qax, Zaqatala və Balakən rayonlarının hər birindən 7 məktəb olmaqla, ümumilikdə, 28 ümumtəhsil müəssisəsinin yuxarı sinif şagirdləri iştirak ediblər. Olimpiadada şagirdlərə Azərbaycan Respublikasının Konstitusiyasını əhatə edən 50 sual təqdim olunub. Hər düzgün cavab 2 balla qiymətləndirilib.

Konstitusiya Məhkəməsinin keçirdiyi hüquq olimpiadaları tarixində ilk dəfə olaraq iştirakçılardan biri—10-cu sinif şagirdi **Nihat Şindiyev** bütün sualları doğru cavablandıraraq 100 bal toplamağa müvəffəq olub. Beləliklə, o, Konstitusiya Məhkəməsinin təsis etdiyi kubok, xatirə hədiyyəsinə və diploma layiq görülmüşdür.

Son olaraq qabaqcıl təhsil ocağının rəhbəri Şaban Abdullayev onu da bildirdi ki, bu səpkidən olan uğurlarımız çoxdur. Kollektivimizin hər bir üzvü yaxşı başa düşür ki, müəllim əməyinə verilən yüksək dövlət qiymətinin müqabilində hər hansı uğurla kifayətlənmək olmaz.

Dövlətimizin gündəlik qayğısına, Təhsil Nazirliyininn, Balakən Rayon İcra Hakimiyyəti rəhbərliyinin, həmçinin rayon təhsil şöbəsinin müntəzəm problemlərimizin həllinə yönələn diqqətinə cavab olaraq bundan sonra da var qüvvəmizlə çalışacaq, müqəddəs müəllim adını daim şərəflə doğruldacağıq.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# QƏLBLƏRDƏ YAŞAYAN ALİM

**Hər bir xalqın gələcəyi onun elm və təhsilinin inkişafı ilə şərtlənir. Xalqın milli sərvəti səviyyəsinə ucalmaq, qürur mənbəyinə çevrilmək çox az sayda həqiqi ziyalıya nəsib olur. Elmdə məktəb yarada bilən ziyalılar bu sıradandır.**

XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan xalqının maariflənməsində, ziyalı təbəqələrinin, bu gün inkişaf etməkdə olan müstəqil Azərbaycan Respublikasının intellektual potensialının, ölkəmizin digər nüfuzlu ali məktəblərinin və AMEA-nın kadr potensialının formalaşmasında Bakı Dövlət Universitetinin böyük rolu olmuşdur. Azərbaycan və dünya elminə çoxlu sayda elm və siyasi xadimlər verən BDU özünün 100 illik yaşında tarixi missiyasını yenə davam etdirir. Azərbaycanda elmi məktəblərin təşəkkülündə, fundamental elm sahələrinin inkişafında da Bakı Dövlət Universitetinin rolu əvəzsizdir, onlarca dəyərli alim yetişmişdir. Elmin belə yüksək zirvələrini fəth etmiş alimlərdən biri də Azərbaycanda nəzəri fizika elmi məktəbinin yaradıcısı kimi respublikada elmin inkişafına sanballı töhfələr bəxş etmiş, fizikanın ali və orta məktəblərdə tədrisinin təşkilində, yüksəkixtisaslı kadrların hazırlanmasında böyük xidmətlər göstərmiş, fizika-riyaziyyat elmləri doktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Abdulla Muxtarov olmuşdur.

İnsan övladı bu dünyaya bir qonaq kimi gəlir, müvəqqəti bir ömür yaşayır. Bu, təbiətin qanunudur. Lakin öz fəaliyyətilə o, xatirələrdə qalıbsa, xalqını, vətənini sonsuz məhəbbətlə sevibsə, gənc nəslin təlim və tərbiyəsində, təhsilin və elmin inkişafında bütün imkan və bacarığını sərf edibsə, bütün şüurlu ömrünü bu amalla yaşamışsa, o, daim yaddaşlarda qalır və elm tarixində öz layiqli yerini tutur. Abdulla müəllim də məhz bu cür insanlardandır.

Abdulla İbrahim oğlu Muxtarov 1918-ci il dekabr ayının 24-də Dağıstanın Rutul rayonunun Saxur kəndində anadan olmuşdur. Erkən yaşında anasını itirən balaca Abdulla atası ilə birlikdə 1924-cü ildə Zaqatalaya köçmüş, yeddi yaşı tamam olmamış Zaqatala şəhər 1 saylı məktəbin birinci sinfinə getmişdir. Sonra təhsilini Zaqatala Pedaqoji Texnikumunda davam etdirmişdir. Zaqatala Pedaqoji Texnikumu bölgənin qabaqcıl elm ocaqlarından biri idi və Abdulla müəllimin bu texnikumda dördillik təhsili onun bütün gələcəyi üçün yaxşı bir təməl olmuşdur.

1934-cü ildə o, Bakı Kənd Təsərrüfatı Texnikumuna daxil olur və 1939-cu ildə bu texnikumu əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat fakültəsinə imtahansız qəbul olunur. 1945-ci ildə universiteti əla qiymətlərlə bitirən Abdulla müəllim universitetin nəzdindəki fizika-riyaziyyat İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmağa başlayır.

Abdulla müəllim çox gənc yaşlarından başlayaraq istehsalatda çalışmışdır. O, texnikumda və universitetdə tələbə kimi oxumaqla yanaşı, 1936-1938-ci illərdə "Azərnəşr" mətbəəsində, 1939-1941-ci illərdə "Kommunist" qəzetində, 1941-1944-cü illərdə isə "Qızıl Şərq" mətbəəsində korrektor vəzifəsində işləmiş, həm özünü, həm də ailəsini maddi cəhətdən təmin etmişdir.

A.Muxtarov ADU-nun aspirantı kimi Moskvaya göndərilmiş və 1947-ci ildə M.Lomonosov adına MDU-nun aspiranturasına daxil olmuş, apardığı elmi-tədqiqat işləri sayəsində böyük nüfuz qazanmışdır. O, Azərbaycanda nəzəri fizika elminin inkişaf etdirilməsində mühüm rol oynamışdır. Onun tədqiqatı nəticəsində bir sıra mühüm elmi nəticələr alınmışdır. Abdulla müəllim elmi rəhbəri A.A.Sokolovla birlikdə fermionların uzununa polyarlaşmasını, fotonun isə xətti və dairəvi polyarlaşmasını hesablamaq üçün yeni üsul təklif etmişdir. Sonralar bu üsul onun tərəfindən ixtiyari polyarlaşmanı təsvir etmək üçün ümumiləşdirilmişdir. Abdulla müəllimin bu elmi işləri, kvant elektrodinamikasına həsr olunmuş monoqrafiyalara daxil edilmiş və dünya elm aləmində öz layiqli yerini tutmuşdur.

Zəif qarşılıqlı təsirdə cütlüyün saxlanmaması nəticəsində fermionların spirallığa malik olması və müasir sürətləndiricilərdə kifayət qədər intensiv, yüksəkenerjili fermion, bozon dəstələrinin alınması, polyarlaşmış zərrəciklərin kvant elektrodinamikasının yaradılması problemi mühüm əhəmiyyət kəsb edirdi. Bu məsələni həll etmək üçün Muxtarov-Sokolov üsulu ən əlverişli üsul idi. A.Muxtarovun demək olar ki, bütün elmi fəaliyyəti bu məqsədə yönəlmişdir.

Alimin elmi işlərinin bir qismi pozitronium atomuna, yüksəkenerjili elektron-pozitron dəstələrinin fermionlara, hadronlara və eləcə də spini 3/2, 5/2, 7/2 olan yüksək spinə malik zərrəciklərə çevrilməsi prosesinin tədqiqinə həsr olunmuşdur. Bu işlərdə Abdulla müəllim qeyd olunan hadisələrin nəzəriyyəsini vermiş və aldığı nəticələr təcrübədə təsdiq edilmişdir.

1950-ci ildə "Pozitronium atomunun parçalanmasına iki zərrəcikdən ibarət sistemin spin hallarının təsiri" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edən Abdulla müəllim Bakıya qayıtmış və elmi-pedaqoji fəaliyyətini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Nəzəri fizika kafedrasında davam etdirmiş, burada baş müəllimlikdən AMEA-nın müxbir üzvlüyünə qədər böyük bir elmi-pedaqoji yol keçmişdir. Məhz bu illərdə A.Muxtarov tərəfindən Azərbaycan nəzəri fizika elmi məktəbinin təməli qoyulmuşdur. O, yetirmələri olan gənc nəzəri fiziklərlə (S.A.Hacıyev, İ.M.Nəcəfov, F.S.Sadıxov, R.X.Muradov, S.Q.Abdullayev və s.) birlikdə elementar zərrəciklər və sahə nəzəriyyələrinin o dövr üçün aktual olan məsələlərinin həllində dünya elminə öz töhfəsini vermişdir.

Onun sonrakı bütün səmərəli elmi və pedaqoji fəaliyyəti respublikanın qocaman elm və təhsil ocağı olan BDU ilə sıx bağlı olmuşdur . O, 1950-67-ci illərdə baş müəllim, dosent vəzifələrində işləmiş və 1967-ci ildən ömrünün sonuna qədər BDU-nun nəzəri fizika kafedrasının professoru və məsləhətçi professoru vəzifəsində çalışmışdır. Bütün bu illər ərzində o, intensiv elmi-tədqiqat işləri aparmışdır. Onun elmi araşdırmaları sahənin kvant nəzəriyyəsi, elementar zərrəciklər və nüvə fizikası, yüksək enerjilər fizikası və s. kimi nəzəri fizikanın mürəkkəb sahələrini əhatə etmişdir. A.Muxtarov 1962-ci ildə doktoranturaya daxil olur və doktorluq dissertasiyasını tamamlamaq üçün Moskva Dövlət Universitetinə ezam olunur. O, 1964-cü ildə müvəffəqiyyətlə "Elektromaqnit və zəif qarşılıqlı təsirlərdə polyarlaşma və spin effektləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək Bakıya qayıdır.

Abdulla müəllimin aldığı elmi nəticələr 150-dən çox məqalə şəklində xarici, keçmiş ittifaqın çox nüfuzlu jurnallarında və respublikanın jurnallarında çap edilmişdir. Bu məqalələr dünyanın tanınmış alimləri tərəfindən yüksək qiymətləndirilmiş və bir sıra monoqrafiyalara daxil edilmişdir: (А.А.Соколов Введение в квантовую электродинамику, Москва, 1958; Methods of experimental Physics; v.513, Nuclear Physics, New-York-London, 1960; Methods of the determination of fundamental Physics quantites, New-York-London, 1963; və s.)

1972-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmiş və onun rəhbərliyi altında 20 nəfər fizika-riyaziyyat elmləri namizədi, 5 nəfər fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır. Onun yetişdirdiyi nəzəriyyəçi fiziklər nəslinin nümayəndələri respublikanın müxtəlif elm mərkəzlərində, ali məktəblərində və həm də respublikadan kənarda müvəffəqiyyətlə fəaliyyət göstərirlər.

A.Muxtarovun Dağıstan və Orta Asiya regionu üçün yüksəkixtisaslı elmi kadrların hazırlanmasında xüsusi rolu vardır. Nəzəri fizikadan mühazirələr oxumaq üçün o, periodik olaraq Dağıstan (Mahaçqala), Aşqabad, Səmərqənd universitetlərinə və Düşənbə Pedaqoji İnstitutuna dəvət olunmuş və bu respublikalar üçün nəzəri fizika üzrə ixtisasçılar hazırlanmasında aktiv iştirak etmişdir.

Elmi-pedaqoji fəaliyyətlə yanaşı, A.Muxtarovun respublikada ali və orta təhsil sisteminin təkmilləşməsi və inkişafında, elmi biliklərin geniş yayılmasında böyük rolu olmuşdur. 1965-67-ci illərdə ADU-nun fizika fakültəsinin dekanı vəzifəsində işlədiyi müddətdə o, nəzəri fizika kafedrasından üç yeni sərbəst kafedranın: bərk cisimlər fizikası, maddə quruluşu və kimyəvi fizika kafedralarının ayrılmasının təşəbbüskarı olmuşdur. 1967-1988-ci illərdə o, BDU-nun nəzəri fizika kafedrasının müdiri olmuşdur. O, fizikadan doktorluq dissertasiyasının müdafiəsi üzrə İxtisaslaşdırılmış Elmi Şuranın sədri, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının fizika üzrə ekspert şurasının sədri olmuşdur. A.Muxtarov 20 ildən artıq bir müddətdə Təhsil Nazirliyinin Elmi Metodiki Şurasına, Respublika "Bilik" cəmiyyətinin fizika bölməsinə, məktəblilərin fizika üzrə respublika olimpiadasına başçılıq etmişdir. O, Azərbaycan Ensiklopediyasının Elmi Redaksiyası Şurasının üzvü olmuşdur.

Respublikanın həm ali və həm də orta təhsil ocaqları üçün Azərbaycan dilində dərslik və dərs vəsaitlərinin hazırlanmasında professor A.Muxtarovun böyük əməyi vardır. O, fizika fakültəsində uzun müddət nəzəri fizikanın bütün bölmələri və ixtisas fənləri üzrə mühazirələr oxumuşdur. Onun Azərbaycan dilində "Statistik fizika" və "Kvant mexanikası" dərslikləri fizika ictimaiyyəti üçün xüsusi əhəmiyyət kəsb edir. Abdulla müəllim yalnız tədris ilə kifayətlənməmiş, həm ali, həm də orta məktəb dərsliklərinin də ən fəal tərcüməçisi və redaktoru olmuş, uzun müddət orta məktəblərdə olimpiadaların keçirilməsinin təşəbbüskarı olaraq orta məktəb şagirdlərinə kömək məqsədilə "Fizikadan olimpiada məsələləri" adlı vəsaiti yazmışdır.



O, "Uşaqlar üçün Ensiklopediya"-nın (Fizika I, II) Azərbaycan nəşri üzərində işləyən müəlliflərdən biri və bu kitabın elmi redaktoru olmuşdur. Bu kitab orta məktəb şagirdləri üçün əvəzsiz hədiyyədir. O, həm də üç dildə - ingilis, rus və Azərbaycan dilində - Fizika terminləri lüğətinin hazırlanmasında iştirak edən işçi qrupun üzvlərindən biri olmuşdur.

Abdulla müəllim həm də gözəl ailə başçısı, qayğıkeş ata, mehriban baba olmuşdur.

Abdulla müəllim 70 ilə yaxın bir müddətdə Bakı Dövlət Universitetində çalışmışdır. Bu heç də hamıya nəsib olmur. Abdulla müəllim universitet rəhbərliyi tərəfindən həmişə qayğı ilə əhatə olunmuşdur. Onun anadan olmasının 75, 80, 85, 90 illiyinə həsr olunmuş yubiley tədbirləri təntənəli şəkildə keçirilmişdir.

Geniş elmi diapazona və zəngin pedaqoji təcrübəyə malik olan Abdulla Muxtarov özünə və ətrafındakılara qarşı tələbkarlığı, işgüzarlığı və qayğıkeşliyi ilə elm, mədəniyyət, ali təhsil və respublikanın bütün yaradıcı ziyalı ictimaiyyətinin dərin hörmət və nüfuzunu qazanmışdır.

Fizika elminin inkişafında və yüksəkixtisaslı kadrların yetişdirilməsində xidmətlərinə görə A.Muxtarov Azərbaycan Respublikası Ali Sovetinin "Fəxri fərmanı"na, SSRİ-nin "Şərəf nişanı" ordeninə, SSRİ-nin "Maarif əlaçısı" və Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüşdür. Anadan olmasının 80 və elmi-pedaqoji fəaliyyətinin 55 illiyi ilə əlaqədar olaraq ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin fərmanı ilə müstəqil respublikamızın yüksək mükafatına - "Şöhrət" ordeninə layiq görülmüşdür. Ona həm də Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdü verilmişdir.

Azərbaycanda elm və təhsilin inkişafında böyük xidməti olan görkəmli Azərbaycan alimi, 2013-cü il may ayının 17-də bu dünyadan köçdü. Abdulla müəllim öz zəngin elm təhsil sahəsindəki fəaliyyəti ilə insanların qəlbində heykəlsiz möhtəşəm bir abidə qurdu və onun həyatı müstəqil Azərbaycan Respublikasının gənc nəsli üçün bir nümunədir.

**Məhəmmədəli RAMAZANOV,**
**BDU-nun fizika fakültəsinin dekanı, professor.**
**Məmməd RƏCƏBOV,**
**BDU-nun nəzəri fizika kafedrasının müdiri, dosent.**


TƏKRAR

Kənd Təsərrüfatı Nazirliyi Açıq Tenderə dəvət edir

Tender 4 lot üzrə keçirilir:

Lot 1 - 4 ədəd Dövlət Sort Sınaq Məntəqələrinin inzibati və yardımçı binalarının layihələndirilməsi

Lot 2 - Toxum emalı zavodunun layihələndirilməsi

Lot 3 - Xırdabuynuzlu heyvanların qırxım məntəqələrinin və mal-qaranın çimizdirilmə qurğusunun layihələndirilməsi (12 ədəd)

Lot 4 - 5 ədəd yaş baramanın qurudulması üçün yığım məntəqələrinin layihələndirilməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otaq (Əlaqələndirici şəxs: Kamil Şirinov, telefon: 498-02-57) ünvanından ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 100 manat
Lot 2 - 100 manat
Lot 3 - 150 manat
Lot 4 - 150 manat

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
Hesab:
AZ94CTRE00000000000002188301
VÖEN: 1700069791
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. Digər sənədlər: Lisenziyanın surəti.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2019-02-28 saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2019-03-14 saat 17:00-a qədər Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otaq ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2019-03-15 saat 17:00 tarixində Kənd Təsərrüfatı Nazirliyində, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 722-ci otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.



Kənd Təsərrüfatı Nazirliyi
Açıq Tenderə dəvət edir

Tender 12 lot üzrə keçirilir:

Lot 1 - Aqrar yönümlü Peşə təhsili məktəbinin layihələndirilməsi

Lot 2 -Fillokseraya davamlı calaq-üzüm əkin materialının istehsalı üçün calaq kompleksinin layihələndirilməsi

Lot 3 - İri və xırdabuynuzlu heyvanların seleksiya damazlıq işlərinin aparılması üçün heyvandarlıq kompleksinin layihələndirilməsi

Lot 4 - Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Cəlilabad Bölgə Təcrübə Stansiyasında Toxum emalı sexinin tikintisinin, inzibati və yardımçı binaların əsası təmirinin layihələndirilməsi

Lot 5 - Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Tərtər Bölgə Təcrübə Stansiyasında inzibati və yardımçı binaların əsaslı təmirlərinin və toxum emalı sexinin tikintisinin layihələndirilməsi

Lot 6 - Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun Samux rayonundakı Texniki Bitkilər şöbəsinin inzibati və laboratoriya binasının əsaslı təmirinin layihələndirilməsi

Lot 7 - Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin inzibati idarə binasının təmirinin və mini pambıq emalı sexi, istixana binalarının və yardımçı binaların tikintilərinin layihələndirilməsi

Lot 8 - Gəncə RAEİM-in inzibati binasının, Pambıq elit toxum emalı sexi və laboratoriya binasının layihələndirilməsi

Lot 9 - ADAU-nun əczaçılıq və morfologiya fakültəsinin binasının əsaslı təmirinin layihələndirilməsi

Lot 10 - ADAU-nun mühəndis fakültəsinin Emalatxana binasının əsaslı təmirin layihələndirilməsi

Lot 11 - Sabirabad rayonlararası Bioloji laboratoriyasının əsaslı təmirinin layihələndirməsi

Lot 12 - Baytarlıq Elmi -Tədqiqat İnstitutunun yardımçı binalarının, Baytarlıq Klinikasının və abadlıq işlərinin layihələndirilməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-cu otaq (Əlaqələndirici şəxs: Kamil Şirinov, telefon: 498-02-57) ünvanından ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 100 manat
Lot 2 - 100 manat
Lot 3 - 100 manat
Lot 4 - 100 manat
Lot 5 - 100 manat
Lot 6 - 100 manat
Lot 7 - 100 manat
Lot 8 - 100 manat
Lot 9 - 100 manat
Lot 10 - 100 manat
Lot 11 - 100 manat
Lot 12 - 100 manat

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
Hesab:
AZ94CTRE00000000000002188301
VÖEN: 1700069791
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. Digər sənədlər: Lisenziyanın surəti.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2019-03-04 saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2019-03-18 saat 17:00 qədər Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otağa ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2019-03-19 saat 17:00 tarixində Kənd Təsərrüfatı Nazirliyində, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 722-ci otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

# Gənc rəssamın ilk sərgisi

Gördüklərini, duyduqlarını əvvəlcə ağ kağız, sonra isə kətan üzərində ifadə etmək bacarığı hələ uşaq yaşlarında yaranmışdı onda. Ətrafındakı gerçəkliyin oxşarını yaradır, rənglərin çoxsaylı çalarlarından uşaq fantaziyası ilə öz dünyasını qurur və bu al-əlvan dünyasında böyüyürdü. Böyüdükcə də sirli-sehirli rənglər aləminin ifadə vasitələrinə, sənətin qanunlarına dərindən bələd olmağa, hadisələri, təbiət mənzərələrini, öz daxili aləmini iç dünyasının rənglərini sərbəst, ustalıqla ifadə etməyə, gələcəkdə yaradıcılıq yolunda ADDIMLARINI MÖHKƏM, QƏRARLI ATMAĞA ÇALIŞIRDI. Düşüncə və hisslərini duyğularını qatıb yaratmaq, təbiətin gğzəlliyini ideallaşdırmaq, yaradıcı təxəyyülü ilə gerçəkliyi birləşdirən əsərlər ərsəyə gətirmək istəyi gündən-günə artırdı. Əslində bu da təsadüfi deyildi. İstedad, bacarıq, qabiliyyət irsən keçir, insanın özü ilə birgə doğulur, deyirlər. Pərviz Ələkbərli də rəssam ailəsində dünyaya göz açıb. Əmisi tanınmış rəssam Azər Ələkbərlinin doğulub boya-başa çatdığı vətənimizin əsrarəngiz guşəsi olan Naxçıvan torpağının nəhayətsiz rəngarəngliyini vəsf edən əsərləri onun uşaq qəlbini ovsunlamış, ruhunu oxşamış, əlinə fırça götürməyə sövq etmişdi.



Pərviz Ələkbərli 1993-cü ildə ziyalı ailəsində dünyaya göz açıb. Kiçik yaşlarından yaradıcılığa həvəs göstərmiş, məktəb illərindən klassik, müasir dünya incəsənəti, dünya rəssamlarının sənət əsərləri ilə maraqlanmış, təsviri incəsənətdə öz sözünü demiş məşhur rəssamların yaradıcılığını, işləmə texnikasını mənimsəməyə, əxz etməyə çalışaraq sənətdə öz yolunun axtarışına çıxmışdır. Yaradıcılığa olan sonsuz istəyi, rəssam olmaq həvəsini hələ balaca ikən hiss edən valideynləri onu 1999-cu ildə orta təhsilini almaq üçün İncəsənət Gimnaziyasına aparrır. İbtidai təhsilini burda alan Pərviz elə ilk günlərdən istedadı, qabiliyyəti ilə diqqətini cəlb edir, qısa müddətdə onların sevimlisinə çevirilir. O, 2010-cu ildə gimnaziyanı əla qiymətlərlə başa vuraraq Türkiyədə Ərzurum Atatürk Universitetinin rəngkarlıq fakültəsinə daxil olur. Tələbəlik illərindən professional yaradıcılıqla məşğul olan, müxtəlif janrlarda əsərlər yaradan gənc rəssam bu illərdə bir sıra süjetli kompozisiyalar, eyni zamanda, Edvard Mane, Rembrand kimi dünyaca məşhur rəssamların portret janrında çəkdikləri dəyərli sənət nümunələrinin surətlərini məharətlə yaradır.



Janr, mövzu müxtəlifliyi ilə fərqlənən, yaradıcılığında müxtəlif bədii vasitələrdən və rəngkarlığın plastik imkanlarından istifadə edən P.Ələkbərli gənc olmasına baxmayaraq, müəyyən mənada öz dəst-xəttini, özünəməxsus rəsm manerasını formalaşdıraraq bir sıra əsərlər yaradıb. “Köhnə Bakı”, “Quba”, “Ay işığı”, “Mərdəkan”, “Dəniz”, “Goradil etüdləri” və s. bu kimi onlarla əsəri ilə öz tamaşaçısının qəlbini fəth edə bilib.

Bəzi hədislərdə adı çəkilən “Habil və Qabil” əsəri dini şəxsiyyətlərin biridir. Burada rəssam paxıllıqdan qardaşını öldürən Qabilin peşmançılıq hisslərini üz ifadəsi ilə aydın, ustalıqla tamaşaçısına elə çatdırmışdır ki, əsəri oxumayan belə hadisələrin gedişini təmin edə bilər.

Xalqımızın qan yaddaşı olan Xocalı soyqırımına həsr etdiyi “Dərdimizin qan rəngi” əsərində isə ermənilərin qeyri-insani qəddarlıq və vəhşiliyi real görüntülərdə əks olunur.

Mənzərə janrında da bir sıra əsərlərin müəllifi olan Pərviz Ələkbərli bu janrda yaratdığı əsərlərində vurğunu olduğu ana təbiəti iç dünyasından keçirməklə bu əsərləri lirik, estetik dəyərə çevirmişdir. Onun özünəməxsus üslubunda incə rəng duyumu, bədii-texniki vərdişlərin yüksək səviyyəsi açıq-aydın hiss olunur.

2011-2012-ci illərdə televiziyadalarda köməkçi rəssam vəzifəsində çalışan Pərviz “Qaynana”, “Aramızda qalsın “, “Bağlı qapı” və bu kimi teleseriallarin quruluşçu rəssamı olmuşdur.

Ali təhsilini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində davam etdirən P.Ələkbərli hər zaman yeniliklər axtarışındadır. Vətənini, millətini xarici ölkələrdə təmsil etmək istəyi ilə yorulmadan öz üzərində işləyən, yaradıcılığını təkmilləşdirən gənc rəssam həm respublikamızda, həm də xarici ölkələrdə keçirilən bir sıra sərgilərdə əsərlərini nümayiş etdirib. O, 2001-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Bakı şəhəri internat məktəbləri arasında keçirilən rəsm sərgisinin, 2004-cü ildə “Yurdumuza bahar gəlir” rəsm müsabiqəsinin qalibi olmuş, 2008-ci ildə isə Yaponiyada təşkil olunmuş “Dünya ekologiya sərgisi”ndə diploma layiq görülmüşdür.

Bu il Xalq rəssamı Arif Əzizovun təşkil etdiyi “Maestro Artist” sərgisində Pərvizin də bir neçə əsəri nümayiş olunmuşdur. Bu günlərdə isə Yasamal rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Yasamal rayon Heydər Əliyev Mərkəzində 2 fevral - Gənclər Günü münasibətilə təşkil olunmuş toplantıda gənc rəssam Pərviz Ələkbərlinin 20-yə yaxın müxtəlif janrlarda çəkilmiş əsərlərindən ibarət fərdi sərgisi nümayiş olundu. Tükənməz enerji, yaradıcılıq həvəsi ilə daim öz üzərində işləyən, mövzu rəngarəngliyi, janr müxtəlifliyi ilə emosional, duyğusal əsərlərlə tamaşaçısının qarşısına hər zaman əli dolu çıxan gənc Pərviz Ələkbərliyə bundan sonra da təxəyyülünü pərvazlandıran aləmləri etməyi, başlanğıcında olduğu sənət yolunu zərif, incə rəng harmoniyası ilə qət etməyi arzulayırıq.

**Mehparə ƏLİYEVA,**
**“Respublika”.**



# İcra olunmuş regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri vardır

## *Dövlət başçısı deyib: “Uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir”*

**(əvvəli 1-ci səhifədə)**

Bu, humanitar məsələlərdir. Həmin problem ölkə rəhbərliyi tərəfindən istər siyasi, istərsə də iqtisadi proseslərdə daim nəzərə alınır və beynəlxalq səviyyədə həllinə çalışılır. Təcrübə göstərir ki, bu problem nəzərə alınmadan sosial-iqtisadi inkişaf davamlı və yüksək templi ola bilməz. Çünki dinamik tərəqqi yalnız sabitlik və sülh şəraitində təmin edilir. Müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biri də ondan ibarətdir ki, buradakı bütün xalqların və dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bütün hüquqlardan da bərabər səviyyədə yararlanırlar. Hər bir dövlətin qüdrətinin göstəricisi olan iqtisadi gücə, siyasi nüfuza ölkədə milli birliyi, bunun əsasını təşkil edən multikulturalizmi bərqərar etmədən nail olmaq mümkün deyildir. Sosial-siyasi sabitlik iqtisadi gücün ən əsas təməllərindəndir. Sabitliyin zəminində isə milli birlik və vətəndaşlıq borcu, həmrəyliyi dayanır.

Davamlı inkişaf ölkənin xarici əlaqələrinə, ixrac-idxal əməliyyatlarına da müsbət təsir göstərir. Dövlət Gömrük Komitəsinin 2018-ci il hesabatına əsasən ticarət dövriyyəsi 30 milyard 924 milyon ABŞ dolları təşkil edib. İxracın həcmi 19 milyard 460 milyon dollar, idxalın həcmi isə 11 milyard 465 milyon ABŞ dolları olub. 2017-ci illə müqayisədə 2 milyard 682 milyon ABŞ dolları məbləğində artan idxalın həcminin heç də hamısı vergitutma bazası deyil, artan idxalın tərkibində strateji qızıl ehtiyatlarını artırmaq məqsədilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu və Mərkəzi Bankı tərəfindən imtiyazlı qaydada ölkə ərazisinə gətirilən, dövlət əhəmiyyətli 803.0 milyon dollar dəyərində qızıl külçələr, eyni zamanda, müxtəlif təsərrüfat subyektləri tərəfindən ölkəyə idxal olunan 300 milyon dollar məbləğində avadanlıq və mexaniki qurğular və digər imtiyazlı mallar təşkil edib. Bununla yanaşı, idxalın tərkibində vergitutma bazası olan 1 milyard 200 milyon dollar məbləğində artıma səbəb isə gömrük orqanları tərəfindən malların real qiymətləndirmə əsasında qanunvericiliyə uyğun qaydada düzgün dəyərləndirilməsi olub.

Regionların inkişafına dövlət səviyyəsində düşünülmüş siyasətlə yanaşma iqtisadi rayonlarda istehsal məhsullarının dünya bazarlarına çıxışına imkan yaradıb. 2018-ci il hesabat dövründə 572 istehsal və xidmət obyekti istifadəyə verilib, müasir çəltik zavodu işə salınıb, “Embawood” mebel fabrikində və Masallı kərpic zavodunda yeni istehsal sahələri yaradılıb, ümumilikdə, sənaye məhsulları istehsalı 77 faiz artıb. Hər il Azərbaycan brendi ilə təkcə Masallıdan xarici ölkələrə 15 milyon manatlıqdan artıq sənaye məhsulları ixrac olunub.

Avrasiya materikində mühüm qovşaq olan Azərbaycan artıq çox güclü tranzit potensialına malikdir. Bu amil ölkənin dünya bazarlarına çıxışını yüksək mərhələyə qaldıra bilər. Onun üçün bütün lazımi addımlar atılır. Belə ki, cari ildə Dövlət Gömrük Komitəsi tərəfindən yeni innovasiya tipli layihələrin həyata keçirilməsi ilə vətəndaş məmnunluğunun təmin edilməsinə və ticarət dövriyyəsinin daha da artırılmasına nail olunması diqqətdədir. Ümumi Tranzit Konvensiyasına əsaslanan tranzit sisteminin inkişaf etdirilməsi də qarşıya qoyulmuş başlıca hədəflərdən biridir. Yeni kompüterləşdirilmiş tranzit sisteminin tətbiq olunmasının tezləşdirilməsi üçün milli qanunvericiliyin uyğunlaşdırılması, tranzit zəmanət sisteminin yaradılması istiqamətində müvafiq işlər görülməkdədir. Bu isə “Made in Azerbaijan” markalı malların Avropa bazarlarına sərbəst çıxışını təmin edəcəkdir.

Sosial-iqtisadi potensialını daim artıran, milli mədəniyyətini qoruyan, yaşadan və zənginləşdirən, dünya xalqları arasında özünə xas dəyərləri ilə yer tutan Azərbaycan qlobalizmin vüsət aldığı müasir dövrümüzdə beynəlxalq iqtisadiyyatda öz mövqeyini daim möhkəmləndirir. İqtisadiyyatın innovativ inkişafı, xalqımızın mədəniyyətində etnik qrupların milli-mənəvi dəyərlərinin ehkam və sintezinin dünyaya nümayişi həm multikulturalizmin təbliğinə, həm də turizmin inkişafına müsbət təsir edən amillərdir. Bu istiqamətdə də bütün lazımi addımlar atılır. Qeyd etmək lazımdır ki, multikulturalizmin mövcudluğu turizmin inkişafına da çox güclü stimul verən şərtdir. Təsadüfi deyil ki, Azərbaycanın müxtəlif regionlarına səfər edənlərin sayı ilbəil artır. Ölkəmizin artan turizm potensialı fonunda 2018-ci ildə sərhədi keçən fiziki şəxslərin ümumi sayı 15 milyon 500 min nəfər olmuşdur. Bu göstərici 2017-ci illə müqayisədə 2 milyon nəfər artıqdır.

İqtisadiyyatda modernləşmə dedikdə buraya insan əməyini, zehni qabiliyyəti səmərəli sərf etməyə imkan verən müasir elmi-texniki yeniliklərin tətbiqi, sağlamlığa ən az mənfi təsir edən və ya bu təsiri aradan qaldıran avadanlıqlar, təhlükəli riskləri və gözləntiləri minimuma endirən, əlverişli iş şəraitini yaradan müəssisələr, firmalar, səmərəli istirahətə vaxt, humanitar problemlərin təcili həlli və s., bundan başqa istehsal edilən məhsulların dizaynı, keyfiyyəti və ilaxır nəzərdə tutulur. Azərbaycan rəhbərliyinin bu istiqamətdə düşünülmüş siyasəti öz müsbət nəticələrini daim artırır. Mövcud obyektlər müasir standartlara uyğun təmir və bərpa edilir. İnşa edilən layihələr modern səviyyədə icra edilir. İstər binalar, istər orada yaradılan şərait, əmək təhlükəsizliyi, istehsal mədəniyyəti, hazır məhsulların yüksək keyfiyyəti və dizaynı əvvəlcədən proqnozlaşdırılır, dəqiqləşdirilir və reallaşdırılır.

Müasirlik, modern istehsal sahələri istehlakçılara ən əlverişli məhsulları təklif deməkdir. Dünyada qlobalizm prosesinin gücləndiyi bir şəraitdə həm də çox güclü iqtisadi yarış vardır. Bu proses isə öz növbəsində insan kapitalına məxsus olan intellektual mənbələrdən səmərəli istifadə etməklə, daha doğrusu, maddi zənginliklə intellektual zənginlik arasında təbii vəhdəti əldə etmək üçün ən əlverişli yollar aramaq və müxtəlif sosial-humanitar üsullarla ölkənin hərtərəfli inkişafına nail olmaq məsələsini ortaya qoyub. Azərbaycanın maliyyə imkanları artdıqca, ölkənin sənaye potensialının daha da gücləndirilməsi üçün lazımi şərait yaranır və sosial-humanitar tədbirlərin sayı da artır, sərhədi genişlənir. Hazırda iqtisadi istiqamətdə beynəlxalq standartlara uyğun mühüm və böyük layihələr həyata keçirilir. Nümunə üçün gəmiqayırma zavodunu, ixtisaslaşmış istehsal obyektlərini, sement zavodlarını, müdafiə sənayesi kompleksini, Sumqayıt texnoparkını və s.-ni göstərmək olar. Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan konfransındakı nitqində ölkədə beş ildə icra edilən layihələrin uğurla yekunlaşdığı barədə vurğulayıb: “Keçən il regionların üçüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı başa çatdı. Bu beşillik proqram artıqlaması ilə yerinə yetirildi. Bu proqram bizə imkan verdi ki, bölgələrdə infrastruktur layihələrinin icrası daha sürətlə getsin, yüz minlərlə yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılsın, kənd təsərrüfatı daha sürətlə inkişaf etsin. Bir sözlə, regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri var”. Beləliklə, düşünülmüş siyasətlə tətbiq olunan Azərbaycan iqtisadi modelində dünyada gedən makro və mikro iqtisadi proseslərin inkişaf meyilləri, onun mahiyyəti, ölkənin iqtisadi potensialı və dünya bazarlarının tələbatı daim nəzərə alınır. Beynəlxalq iqtisadi, siyasi və sosial proseslərdə milli mənafelər ön mövqedədir.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**

## *SƏHİYYƏ XƏBƏRLƏRİ*

### Azərbaycan Respublikası Səhiyyə Nazirliyi yanında fəaliyyət göstərəcək İctimai Şuranın tərkibi formalaşıb

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin tələblərinə uyğun olaraq bu günlərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin inzibati binasında Səhiyyə Nazirliyi yanında İctimai Şura üzvlüyünə keçirilən seçkilərin nəticəsi açıqlanıb.

Belə ki, aşağıda adları qeyd olunan şəxslər İctimai Şuraya üzv seçiliblər:

1. Ağayev Qorxmaz Siracəddin oğlu - “Tibb işçilərinin hüquqi maarifləndirilməsinə yardım” İctimai Birliyi
2. Eyvazov Taryel Əli oğlu - “Azərbaycan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri” İctimai Birliyi
3. Nəbiyeva Ziba Vasif qızı - “İnkişafa doğru Qadın Təşəbbüsü” İctimai Birliyi
4. Salayev Rüstəm Əli oğlu - “Psixo-Sosial yardım” İctimai Birliyi
5. Sultanova Yeganə Teymur qızı - “Azərbaycan Diabet Liqası” İctimai Birliyi

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi yanında İctimai Şura 20 gün müddətində ilk iclasını keçirməklə fəaliyyətə başlayacaqdır.

### Gözün buynuz qişasının transplantasiyası əməliyyatları uğurla icra olunub

Respublika Müalicəvi Diaqnostika Mərkəzinin Oftalmologiya şöbəsinin müdiri, oftalmoloq-cərrah, t.e.n. Xəlil Hüseynov tərəfindən 2019-cu il yanvarın 30-da iki pasiyentə gözün buynuz qişası uğurla transplantasiya olunub.

Toxumalar ABŞ-dan gətirilib və ilk mərhələdə təcili köçürülməyə ehtiyacı olanların əməliyyat olunması nəzərdə tutulub. Əməliyyat zamanı sağlam gözün buynuz qişasından kəsilib götürülmüş, diametri 6-9 millimetr dairəvi hissə resipiyentin (pasiyentin) sağlam olmayan buynuz qişasının əvəzinə köçürülüb.

Buynuz qişa gözün ən ön hissəsində yerləşən, işığı sındırmaq və gözü xarici zədələyici faktorlardan qorumaq üçün xüsusiləşmiş şəffaf və sferik səthə malik olan toxumadır. Bu toxuma gözün ən qüvvətli işıq sındırma sahəsidir. Buynuz qişa işığı sındırma xüsusiyyəti sayəsində xaricdən gələn işığın torlu qişaya düşməsinə kömək edir. Buynuz qişa şəffaf və damarsız struktura malikdir. Damarsız olmasına baxmayaraq, sinirlərin paylaşımı dəridən 300-400 dəfə daha sıxdır. Buynuz qişa göz yaşı və göz içi mayesindəki oksigen vasitəsilə qidalanır. Sinir lifləri sayəsində göz qırpma refleksi oyandırılır və buynuz qişa göz yaşı ilə hər zaman isladılaraq səthinin bütövlüyü qorunur.

**Səhiyyə Nazirliyi Mətbuat Xidməti.**

# “Din, mədəniyyət və cəmiyyət” mövzusunda “Qış məktəbi” təşkil olunub

Müasir təhsil standartları və dünya təcrübəsi əsasında təsis edilmiş, tələbələrin elmə, təhsilə marağının artırılması, intellektual səviyyələrinin yüksəldilməsi, milli-mənəvi dəyərlərinin təbliği məqsədilə müxtəlif tədbirlər həyata keçirən Azərbaycan İlahiyyat İnstitutu (AİI) Şamaxı rayonunda “Din, mədəniyyət və cəmiyyət” mövzusunda “Qış məktəbi” təşkil edib.

Tələbələrin dünyagörüşünün zənginləşdirilməsi, onların ölkəmizdə mövcud multikultural, tolerant-mühitin canlı şahidi olmaları məqsədilə təşkil olunan “Qış məktəbi” 3 gün davam edəcək.

İnstitutun kollektivi şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.

“Qış məktəbi” layihəsinin ilk günündə idarəçi, biznes məsləhətçisi Fəxri Ağayevin “Şəxsi inkişafda mütaliənin rolu”, “Şəxsi inkişaf və karyera” mövzularında təlimləri təşkil olunub. F.Ağayev “Şəxsi inkişafda mütaliənin rolu” mövzusunda danışaraq, insanın şəxsiyyət kimi formalaşmasında mütaliənin insanın dünyagörüşünü, biliklərini, həyat təcrübəsini, mənəviyyatını, nitq qabiliyyətini daha da zənginləşdirdiyindən bəhs edərək deyib: “Gənclərimiz istər orta, istərsə də ali tədris müəssisələrində istifadə etdikləri vəsaitlərdə nəzərdə tutulan biliklərdən tam məlumat ala bilmirlər. Müəyyən vaxt çərçivəsində məhdudlaşan ali və orta ixtisas təhsili məktəblərinin proqramları lazımi məlumatları özündə bütöv şəkildə əks etdirmir”.

Natiq “Şəxsi inkişaf və karyera” mövzusunda digər məruzəsində isə yeniyetmə və gənclərin fərdi bacarıqlarını inkişaf etdirməyiin onlara karyera imkanlarını dəyərləndirməkdə effektiv köməklik edə biləcəyini qeyd edib. O bildirib ki, uğurlu karyera qurmaq üçün təkcə sahə və peşə bilikləri yetərli deyil, həmçinin insanın sosial vərdişləri, bacarıqları da xüsusi əhəmiyyət daşıyır.

Sonra tələbələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə bərpa edilən Dəmirçi məscidini ziyarət ediblər. Tələbələrə məlumat verilib ki, tarixi abidəmiz olan bu qədim məscid 755-ci ildə tikilib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçıları - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində ölkəmizdə bütün tarixi abidələr, ziyarətgahlar, məscidlər bərpa edilir, əsaslı təmir olunur və yeniləri inşa olunur.

Günün sonunda tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün film nümayiş olunub.

**AİI-nin mətbuat xidməti.**

# Bu il özünüməşğulluq proqramına 7-8 min ailənin cəlb edilməsi nəzərdə tutulur

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü olan özünüməşğulluq proqramının əhatə dairəsi 2018-ci ildə əvvəlki illə müqayisədə 6 dəfədən çox genişləndirilib. Ötən il proqrama müraciət edənlərdən 7296 nəfər təlim kurslarından keçərək biznes-planlarını müdafiə ediblər. Onlardan artıq 5500-nə aktivlər təqdim olunub. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlət televiziyasına müsahibəsində bildirib.**

Nazir aktivlərin verilməsi prosesinin davam etdirildiyini, hər həftə təqribən yüzədək şəxsə aktivlər verildiyini deyib. Proqrama cəlb olunanlar arasında həssas qruplardan olanların üstünlük təşkil etdiyini bildirən S.Babayev qeyd edib ki, özünüməşğulluq proqramı ildə 7-8 min ailəni əhatə edir. Bu da faktiki olaraq ildə 7-8 min mikro müəssisənin və təsərrüfatın yaradılması deməkdir. 2019-cu ildə də özünüməşğulluq proqramına 7-8 min ailənin cəlb edilməsi nəzərdə tutulur. S.Babayev il ərzində aktivlərin verilməsi prosesinin ardıcıl şəkildə davam edəcəyini diqqətə çatdırıb.

Nazir proqram çərçivəsində ayrı-ayrı sənətkarlıq növləri üzrə kiçik təsərrüfatını quranların da olduğunu, ötən il proqram iştirakçılarından 1000 nəfərə qədərini belə şəxslər təşkil etdiyini deyib.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsi**

# ALİ TƏHSİLDƏ İNNOVASİYA VƏ MODERNLƏŞMƏ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR*



**M.MAHMUDOV,**
**AzTU-nun Ümumi və tətbiqi riyaziyyat kafedrasının müdiri, professor.**

**“Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri bütün tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişdir. Bu gün qədəm qoyduğumuz informasiya cəmiyyəti və biliklərə əsaslanan yeni tip iqtisadiyyatın formalaşması, qloballaşma çağırışları bütün dünya təhsil sistemi qarşısında yeni vəzifələr qoyur. “Təhsil əsri” adı qazanmış XXI əsr Azərbaycan təhsilinin də yeniləşməsini və müasirləşməsini tələb edir. Əminəm ki, Azərbaycan müəllimləri fəaliyyətlərini bu tələblərə uyğun daha da təkmilləşdirərək, müstəqil Azərbaycan Respublikasının çiçəklənməsinə xidmət edən gənc nəslin yetişdirilməsi işinə öz töhfələrini verəcəklər”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**XX əsr müasir cəmiyyətə böyük dinamik dəyişikliklər gətirdi. Bu dəyişikliklər bizi əhatə edən ətraf aləmin görüntüsünü əsaslı surətdə dəyişdi. Belə vəziyyətdə ali məktəblərin fəaliyyət dairəsi genişlənməyə başladı. Bu zaman ancaq ənənəvi sahədə mütəxəssis hazırlamaq deyil, həm də bu strategiyanı hazırlayan və həyata keçirə bilən mədəniyyət konturunun yaradılması məsələsinin həlli qarşıda durdu. Daha doğrusu, ali məktəbin yeni vəziyyəti, təhsil sisteminin istiqaməti ilə cəmiyyətin məlumat ehtiyacını bağlayan ümumdünya fikirlərə olan münasibətin həllindən asılı oldu. Ali məktəb aramla bazar münasibətlərinin tamhüquqlu subyektinə çevrilir, bu isə onun quruluşunun yaranmasına, funksiyalarının dəyişilməsinə, yeni məktəblərin maliyyə problemlərinin həllinə, həmin yeni metodikalarının axtarışına və biliyin keyfiyyətinin nəzarətinə təkan verir.**

Ali məktəbin sosial funksiyaları kateqoriya kimi geniş dairədə baxılır, bu isə sosial sistemin müxtəlif sferalarda elementlərinin fəaliyyətini bütövlükdə əks etdirir. Məsələn, mədəni-yaradıcı funksiyalar cəmiyyətin mənəvi aləminin inkişafına yönəlmişdir. Belə şəraitdə ali məktəblərin rolu və məsuliyyəti artmışdır. Çünki bu proses şəxsiyyətin formalaşmasına birbaşa təsir göstərir, sosial məsuliyyət hissinin bünövrəsini qoyur, yəni bu, cəmiyyəti qorumaq, inkişaf etdirmək və mənəvi irsi ötürməyə imkan verir. Bunları nəzərə alıb deyə bilərik ki, XXI əsrdə köhnə təhsil sistemi bütövlükdə ümumi inkişafa mane olur.

XX əsrin axırları, XXI əsrin əvvəllərindən ölkəmiz inkişaf etmiş ölkələrlə bu istiqamətdə həm regionlar arasında liderliyinə görə, həm də öz milli təhlükəsizliyinə, özünəxas inkişafın qorunmasına, siyasi-mədəni sistemə və çoxrəngli dünyəvi cəmiyyətə görə rəqabətə başladı. Bu isə perspektivlər aləmində təhsil və elmin miqyası, səviyyə və keyfiyyəti milli təhlükəsizliyin təminatının və inkişafının həlledici, aparıcı amilinə çevrilir.

Müşahidələr göstərir ki, təhsil ocaqlarının əksəriyyətində əməkdaşlıq yaradılması, ezamiyyətlər, qarşılıqlı danışıqların təşkili və s. ancaq görüntülərdən ibarətdir. Xarici dillərin öyrənilməsinin təşkil olunması və tərəfdaşlar arasında ünsiyyət yetərli deyil. Birgə əməkdaşlığın zəruri amillərinin yaradılmasında xarici dil bilən ixtisaslı müəllimlərin cəlb edilməsi və əməkhaqlarının ödənilməsi üçün ciddi maliyyə qoyuluşunun olmaması ağrılı nöqtələrdən biridir (bəzi ali məktəblərdə xarici dil bilməyən müəllimlərin xarici ölkələrə nə üçün getdikləri sual doğurur).

Universitetlərdə mühüm dəyişikliklərin sırasında həyata keçiriləcək faktlardan bəzilərini göstərək: bilik səviyyəsinin yüksəldilməsi, informasiya və kommunikasiyanın qlobal miqyasda inkişafı, meydana çıxan genişmiqyaslı əmək bazarına daxil olmaq və s. ali təhsil də daxil olmaqla ümumdünya inkişafının xarakterizə edən qloballaşma bir proses kimi dövlətin müxtəlif sahələrindəki siyasətin formalaşmasına təsir edən əsas qüvvələrdən biridir.

Dünya proseslərinin öyrənilməsində ali təhsil mühüm rol oynamalı, peşə fəaliyyəti və qlobal prosesləri idarə etmək üçün mütəxəssislər hazırlanmalıdır. Bu isə çətin və ziddiyyətli prosesdir, məhz buna görə də tədqiqatçılar ona müxtəlif məna verirlər. Bu faydalar isə təhsil sistemindən faydalı surətdə istifadə etməklə ticarətin geniş miqyasda böyüməsində, rəqabətin artmasında, keyfiyyət standartlarının yüksəldilməsində, mövcud olmuş milli təcrid qalıqlarının aradan qaldırılmasında və s. özünü göstərir. Avropada geniş yayılmış Bolonya prosesi də qloballaşmanın müsbət təsirinin parlaq nümunəsidir.

İndiki dövrdə dünya təhsil sistemində ali məktəblərin milli çərçivəyə qapanması iqtisadiyyatın qloballaşmasının nəticələri və perspektivləri ilə get-gedə daha dərin və müxtəlif məsələlərdə konfliktə gətirir. Məsələn, universitet diplomlarının və ixtisas dərəcələrinin tanınmasında, təhsilin keyfiyyətinin beynəlxalq qiymətləndirmə formalarının inkişafında, beynəlxalq akkreditasiya prosedurlarında və sair qarşıya çıxır. Bu məsələnin həllini tələbələrin və müəllimlərin mobilliyi, tədris planlarının beynəlmiləlləşdirilməsi, birgə proqramlar, ikili və üçlü diplom proqramları, təhsil xidmətlərinin müxtəlif növləri kimi formalarda axtarmaq lazımdır.

Ölkə ali məktəblərinin ünvanına bəzi iradlar səslənir, etiraf etmək lazımdır ki, bu iradların bəziləri heç də əsassız deyil. Artıq bu iradları araşdırmaq zamanı gəlib çatmışdır: bizim ali təhsilimiz bu gün hansı səviyyədədir, bu gün ali təhsil ocaqlarında nə kimi proseslər gedir? Müvəffəqiyyətlərimiz və nöqsanlarımız nələrdən ibarətdir?

Ölkəmizdə ictimai inkişafın indiki mərhələsində sosial-iqtisadi, mədəni və s. sahələrdə xeyli dəyişikliklər baş verir və təhsilə münasibət dəyişilir. Ali məktəblərə böyük müstəqillik verilməsi və aparılan islahatlar yüksəkixtisaslı mütəxəssislər hazırlayan bu məktəblərin yeni inteqrasiya formalarının tədqiqi məsələsini qarşıya qoyur. YUNESKO və Avropa Birliyi islahat konsepsiyasına uyğun olaraq qida, geyim və mənzillə yanaşı, təhsil insanın əsas tələbləri qrupuna aid edir. İnsanın tələbatlarından yaranan belə bir irəliləyiş bir sıra səbəblərlə bağlıdır. Bunların içərisində müasir istehsalın intellektuallığı mühüm rol oynayır. İndiki zamanda istehsalat və ictimai həyat sürətlə dəyişir, inkişaf edir. Buna müvafiq olaraq tədris prosesi daimi yeniləşmə, modernləşmə və təkmilləşmə tələb edir.

İnsan gəncliyində seçdiyi peşəsindən, ixtisasından və bəzən iş yerindən yeni sahələrin yaranması səbəbindən öz fəaliyyətini dəyişdirmək zərurəti yaranır. Bu isə onda yeni fəaliyyət sahəsinə dair bilik və bacarıqlara yiyələnmək zərurəti yaradır. Bununla yanaşı, insanın gəncliyində konkret peşə, ixtisas bacarıqlarından bütün həyat boyu istifadə etməsi kifayət etmir. Buna görə də fasiləsiz (ömürboyu) təhsilin zəruri olduğunu dərk edərək digər sahələrdə də özünü sınamaq məcburiyyətində qalır. İnsan özünün təhsil sayəsində əmək və məişət qayğılarının dar çərçivəsindən ayrılaraq bütün bəşəriyyətə mənsub olduğunu duymağa başlayır. Aldığı biliklər ona nəinki planetin əsas hadisələrindən xəbər tutmaq, həm də özünün əhatəsində baş verən zərərli hadisələrin qarşısını almaq üçün hansısa addımlar atmasını təmin edir.

Təhsilin böhrandan çıxış yolunu təmin edən amillərdən biri məhz insanın yüksək peşəkarlığını təmin edən fasiləsiz təhsil prinsipinin gerçəkləşməsidir. Ali təhsil sferasında yeni yanaşmalar təhsil və elmi-tədqiqat proseslərinin elə bir uzlaşmasını tələb edir ki, o, yeni biliklərin təhsil sferasına axınının ləngiməsini minimuma endirmiş olsun. Təəssüflər olsun ki, bəzi ali məktəblərdə aparılan elmi-tədqiqat işlərinin səviyyəsi və xarakteri bu prinsipdən çox-çox geridə qalır. Başqa elm sahələrində olduğu kimi, bu problem riyaziyyat-təbiət elmləri sahəsində də özünü göstərir.

Dünyada iqtisadiyyatın texnoloji inkişaf yoluna qədəm qoyduğu indiki zamanda yüksək səviyyəli mütəxəssislərin hazırlanmasına ehtiyac vardır və bu məqsədlə dünya təhsil sistemində yüksək səviyyəli bakalavrların hazırlanması mühüm və əhəmiyyətli rol oynayır. Başlıca problemlərdən biri ölkəmizdə hazırlanan peşəkarlar kəmiyyətcə yox, keyfiyyətcə fərqlənməlidir. Bunun üçün təhsilin keyfiyyəti və sağlam mühit qarşıya çıxan problemlərin həllində əsas rol oynayır. Müşahidələr göstərir ki, ali texniki məktəblərin kompüter və informatika mədəniyyətinin formalaşdırılması, müasir psixoloji-pedaqoji texnologiyalar və nəzəri yanaşmalar hazırda mövcud tələblərdən geridə qalır. Əgər biz keyfiyyətli təhsil istəyiriksə, onda birinci növbədə müəllim və tələbələri müasir avadanlıqlarla təchiz etməliyik. Bu istiqamətdə kadr hazırlayan tədris müəssisələri mövcud çatışmazlıqları görməli və aradan qaldırmalıdırlar.

Bəzi ali məktəblərin müəllimin əməkhaqlarından qənaət etməsi kadr iflasına və onların intellektual yoxsullaşmasına aparan bir yoldur ki, bu da öz növbəsində mütəxəssis hazırlığının keyfiyyətinin pisləşməsinin bir şərti kimi özünü göstərir.

Son zamanlar əməkhaqqının artırılması dövlətimiz və hökumətimizin diqqət mərkəzində durmuşdur. Lakin onu da qeyd edək ki, belə bir şəraitdə Bolonya prosesinin müddəalarının reallaşdırılmasında və tətbiq edilməsində müəllimlərin əmək fəaliyyətinin qiymətləndirilməsi üzrə məqsədyönlü, düşünülmüş işlərin görülməsi zəruridir. Məsələn, tutaq ki, professorun dərs yükü 600 saat təşkil edir. Bundan başqa, onun üzərinə düşən başqa elmi fəaliyyətə diqqət yetirək: dərsliklər, dərs vəsaitləri yazırlar, fəlsəfə və ya elmlər doktorluğu müdafiələrində opponent qismində iştirak edirlər, dissertasiya şuralarında fəal surətdə çalışırlar, ali məktəblərdə elmi dərəcə almaq istəyən kadrların hazırlığını aparırlar, monoqrafiya və dərsliklərə rəy verirlər, elmi seminarlar aparırlar və s. Deyilənlərdən aydın görünür ki, ştat cədvəli bütün kateqoriyalardan müəllim heyəti üçün eyni olan dəyişilməz rəqəm üzrə deyil, qeyd olunan fəaliyyət amillərini nəzərə almaqla formalaşdırılmalıdır. Göstərilən amillər isə ali məktəblərin maliyyələşdirilməsinin iqtisadi meyarlarının işlənib hazırlanması ilə bağlıdır ki, bu, çox mürəkkəb bir prosesdir. İkinci tərəfdən maliyyə təminatının sadələşdirilməsini yalnız müəllimlərin sayı ilə müəyyənləşdirmək düzgün deyil. Digər tərəfdən, professor-müəllim heyətinin keyfiyyət tərkibində onların fəaliyyət səviyyəsini və bir sıra başqa amilləri nəzərə almaq lazımdır.

Tədris yükü normaları maliyyə təminatı ilə möhkəmləndirilmir, tədris saatlarının cəmi eynilə qalsa da, həyata keçirilən tədris yükü normaları tətbiq edilərkən əlavə sayda müəllimlərin cəlb edilməsinə zərurət yaranır, bu isə əlavə maliyyələşdirmə tələb edir. Bu hal isə çətin ki, büdcədə nəzərdə tutulmuş olsun. Başqa bir problemə diqqət yetirək: auditor və müstəqil işin nisbəti reallaşdırıldıqda, auditor yükünün azaldığı ortaya çıxır, bu isə müəllimlərin sayının real olaraq ixtisarına, onların arasında işsizliyə və qalan müəllimlərin yükünün artmasına gətirib çıxarır.

Avropa universitetləri dövlət tərəfindən lazımınca maliyyələşdirilmir. Buna görə də universitetlər maliyyə axınlarının genişləndirilməsi problemi üzərində işləyir. Universitetlər ali təhsilə və elmi tədqiqatlara olan münasibətlərini və onların maliyyələşdirilməsini yenidən diqqətdən keçirir və gələcəyə kapital qoyuluşu kimi baxmağa çağırır. Universitetlər Avropa səviyyəsində ən yüksək dialoqu alqışlayır və belə bir fikir irəli sürürlər: güclü Avropaya güclü universitetlər lazımdır.

Təhsil strukturu və sistemi elə olmalıdır ki, XXI əsrdə vətəndaşların yüksək səviyyədə yaşamalarında əhəmiyyətli rol oynasın. Dövlət və hökumətimiz universitetlərin dəstəklənməsi və saxlanması üçün həmişə müvafiq maliyyələşdirmə səviyyəsinə zəmanət vermişdir. Məhz yuxarıda göstərilənləri nəzərə alaraq deyə bilərik: güclü Azərbaycan üçün güclü universitetlər yaratmaq lazımdır.

Nə üçün XXI əsr kompüter əsri adlanır? Çünki o, artıq praktikada geniş tətbiq olunmuşdur, həyatımızın bütün sahələrinə sirayət etməklə onun bir hissəsinə çevrilmiş, tədqiqat və tədris məsələlərinə yaxşı uyğunlaşdırılmışdır. Ona görə də bu, gənc kadrların işində daim köməkçi rolunu oynayır.

İndiki dövrdə bakalavr təhsil səviyyəsi üçün yeni tədris proqramının hazırlanması, ona uyğun dərsliklər, dərs vəsaitləri və s. işlənməsi kafedralar qarşısında kəskin qoyulmalıdır. Dərsliklər, dərs vəsaitləri və s. elə şəkildə yazılmalıdır ki, tələbələr riyazi məsələlərin həllində fikirləşə bilsin, əldə etdikləri bilikləri müasir riyazi məsələlərin həllinə tətbiq etsin və qarşıya çıxan məsələlərin həlli yollarını müəyyənləşdirə bilsinlər. Bunun üçün də tələbələrə həm də öyrənməyi öyrətmək lazımdır. Ali məktəb tələbələri arasında təbiət elmləri fənlərinin öyrədilməsi zamanı ümumiləşdirmə və təsnifat əməliyyatlarının başlanğıc səviyyəsinin mənimsənilməsinin yetərsizliyi özünü əks etdirir. Bu çatışmazlıq riyaziyyat kursunun tədrisində də özünü göstərir. Təhsilin və riyazi təhsilin keyfiyyət məsələləri, riyazi təhsilin məzmununa müxtəlif yanaşmalar, tədrisdə yeni təlim texnologiyalarının tətbiqi və s. kimi əhəmiyyətli məsələlər bu gün öz həllini gözləyir.

Ali məktəblərdə dəqiq fundamental elmlərin tədrisi o halda keyfiyyətli ola bilər ki, tədris prosesi məqsədyönlü və gərgin təfəkkürlə müşayiət olunsun. Dəqiq elmlərin tədrisində psixologiyanın bu müddəası daha fundamental önəm daşıyır ki, yeni anlayışlar mənimsənilərkən tələbələrin təfəkkür fəaliyyəti fəallaşdırılmazsa, onda nəinki düşünmək bacarığı əldə olunar, həm də yaddasaxlamanın özü də yarımçıq olar, çünki onun bünövrəsi başadüşərli, anlamlı olmayacaqdır. Anlama zamanı lazımi səviyyəyə nail olmaq üçün həyata keçirilən yaddasaxlama nəinki faydalıdır, hətta o, adətən sonrakı əldə olunacaq biliklərin möhkəmləndirilməsinə mane olmur.

Elmi-texniki tərəqqinin sürətli inkişafı və cəmiyyətin həyat şəraitinin dəyişməsi təhsil konsepsiyasının təkmilləşdirilməsi zərurətini doğurur. Buna görə təhsilin keyfiyyətinin artırılmasının əsas yollarından biri informasiya-kommunikasiya təhsil sahəsinə geniş şəkildə tətbiqidir. İnformasiya-kommunikasiya tətbiqində istifadə edilən yeniliklər yeni metod və formaların genişlənməsinə, müəllimlərin iş üslubunun dəyişilməsinə, həm də pedaqoji sistemdə struktur dəyişiklərinə gətirib çıxarır. Bu halda təhsilin məqsəd, vəzifə və məzmununun qiymətləndirilməsi baş verir, bu isə mütəxəssis hazırlığının şəxsiyyətyönümlü modelinin qurulmasına imkan verir. Belə bir yanaşma şəxsiyyətin yaradıcılıq qabiliyyətinin inkişafına, qeyri-standart vəziyyətlərdə həll yolu tapmaq bacarığına, müstəqil və yaradıcı düşünməyə, dəyişən şəraitə uyğunlaşmağa yönəlməlidir.

Müasir dövrdə elmi-texniki tərəqqi, informasiya və kompüter inqilabı, ideya və biliklərin sənayeyə çevrilməsi, yeni informasiya texnologiyalarının inkşafı, təhsilin yeni vəzifələrini qarşıya qoyur. İnformatika hazırlığının məqsədi təhsil alanın fəaliyyətinin və onun şəxsiyyət keyfiyyətinin formalaşmasından ibarətdir. Bunlar insanın peşəsi, onun həyat tərzi, mədəni və intellektual inkişaf səviyyəsi ilə müəyyənləşir, yeni pedaqoji texnologiya biliklərin ötürülməsindən daha çox, təhsil alanın şəxsi keyfiyyətlərinin formalaşmasına istiqamətlənməlidir. Bu kimi problemlərdən biri pedaqoji prosesin layihələşdirilməsidir. Təhsilə sosial həyatın birinci dərəcəli tələbatlarından biri kimi yanaşılmalı və onun yeni texnologiyalarını mənimsəmək lazımdır. Buna görə də işin ənənəvi formalarını və metodlarını, eləcə də təlim vasitələri və texnologiyalarını təkmilləşdirmək sahəsində əsaslı tədqiqatlar aparılmalıdır.

Tədris prosesinin keyfiyyətinin yüksəldilməsinin yeni yollarının işlənib hazırlanması onun təkmilləşdirilməsinin şərti, elm və texnikanın son nailiyyətlərinin tətbiqinin nəticələrindən biri kimi bu gün aktualdır və daha çox vacibdir. Tələbələrin müasir texnologiyaların tələblərinə uyğun yüksək səviyyəli hazırlığı üçün tədris prosesində elə lazımi addımlar atılmalıdır ki, müasir texnologiyaların sürətlə inkşafı ilə bağlı olaraq qazandıqları bilikləri onlar gələcəkdə uyğun olaraq dəyişdirə bilsinlər.

Ali məktəb müəllimləri üçün aşağı kurs tələbələrində adekvat formalaşdırılma problemi xüsusi maraq kəsb edir. Bu baxımdan tədris fəaliyyətini şəxsiyyətin inkişafının tərkib hissəsi kimi gözdən keçirmək lazımdır. Müşahidələr göstərir ki, nəzəri fənlərin öyrədilməsi zamanı yeni informasiya texnologiyalarından istifadə edilməsi ilə əldə olunan biliklərin keyfiyyət göstəriciləri, fərdi və ya kollektiv tədris fəaliyyətinin təşkili bütün digər formalarda alınan göstəricilərdən yüksəkdir. Bilik və bacarıqların əldə edilməsi ciddi fəaliyyətdir. Bilik və bacarıq bir-biri ilə bağlı, biri digərinin səbəbi və biri digərinin nəticəsi olub eyni bir fəaliyyətdir, lakin müxtəlif formalarda üzə çıxır. Tədrisin ümumi keyfiyyəti yetərli olmadıqda keyfiyyətli məzunlardan danışmaq mümkün olmadığından ali məktəblərdə tədrisin keyfiyyətinin yüksəldilməsi dövrün prioritet vəzifələrindən birinə çevrilmişdir.

XI-XII əsrlərdə yaranmış dünya ölkələrinin nüfuzlu ali təhsil müəssisələrinin indiki dövrdə illik dövriyyəsi milyonlar və ya bir-beş milyard dollar həcmindədir. Buna baxmayaraq yüz illərlə tarixi təcrübəsi və böyük maddi-texniki bazası olan bu ali təhsil müəssisələrinin də müasir texnologiyaların tələblərinə uyğun öz maliyyə problemləri vardır. Dünya təhsil sistemlərinin təcrübəsi göstərir ki, nüfuzlu qeyri-dövlət və dövlət ali təhsil müəssisələrinin inkişafında da maliyyə çətinlikləri baş verir. Bu ali təhsil müəssisələrinin rəhbərləri, əlaqədar nazirliklər və şəxslər həmin çətinliklərin aradan qaldırılmasında və əlavə gəlir əldə edilməsində müxtəlif variantlardan istifadə edirlər. Bu işdə həm də varlı, imkanlı şəxslərin köməkliyi də mühüm rol oynayır ki, bu təcrübədən bizim ölkəmizdə də istifadə etmək faydalı olardı.

Dövlətimizin təhsil işçilərinə diqqət və qayğısının nəticəsidir ki, hər il bir sıra müəllimlərə fəxri adlar verilir və bir sıra müəllimlər isə təhsilin inkişafındakı xidmətlərinə görə orden və medallara layiq görülür. Ağrılı nöqtələrdən biri odur ki, ali məktəb müəllimlərinə fəxri adların, orden və medalların verilməsi əsasən ali məktəblərin müəyyən illik yubileylərində baş verir. Digər tərəfdən qeyd edək ki, müəllimlərin xidmətləri aşağı təbəqələrdən qiymətləndirilib təqdim edilməsində yerlibazlıq, dostbazlıq, yaramaz əməllər özünü əks etmişdir. Ali məktəblərdə yaşı 65-70-i keçmiş vəzifədə olan şəxslərin öz vəzifələrindən uzaqlaşdırılması rəhbərlik tərəfindən yaşlarının bəhanə olması yox, vəzifələrinə yararsız olduqları açıqlanmır.

Ölkəmizin təhsil inkşafı üzrə dövlət proqramlarının yerinə yetirilməsində Ali Texniki Universitetdə maddi-texniki bazanın gücləndirilməsi, təhsilin məzmununun yeniləşdirilməsi, yeni tədris proqramlarına uyğun dərslik, dərs vəsaitləri, metodik vəsaitlər və s. hazırlanması, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində yeni model və mexanizmlərin tətbiq edilməsi, pedaqoji kadr təminatının yaxşılaşdırılması, kafedraların İKT ilə təminatı sahəsində nailiyyətlər və s. əldə olunmuşdur. Biz müəllimlər əminik ki, keçmişin hərc-mərclikləri bu gün təkrar olunmayacaq. Ziyalı gücümüzdən istifadə edərək ölkəmizin çiçəklənməsi naminə Prezidentimiz cənab İlham Əliyevin siyasətini alqışlayır və qəlbən deyirik - Ulu Tanrı Sizə yardımçı olsun!

Son illər texniki universitetlərdə bəzi müəllimlər tərəfindən dərs vəsaitlərinin hazırlanması bir növ qazanc əldəetmə prosesinə çevrilmişdir. Dərs vəsaitləri peşəkar, elm cəhətdən yüksək səviyyəli müəllimlər tərəfindən yazılmalıdır və həm də tələbələrə satıldıqda ölkəmizin iqtisadi cəhətdən indiki vəziyyəti nəzərə alınmalıdır. Yüksək səviyyəli müəllimlər tərəfindən yazılmayan vəsait gələcək mütəxəssislərin hazırlıq səviyyəsini aşağı salır. Dərs vəsaitləri tədris proqramı üzrə kafedranın əməkdaşları tərəfindən hazırlanmalı və daim təkmilləşdirilməlidir. Buna görə də müəllimlər öz biliklərini artırmalı, müasir tələblərə uyğun təkmilləşməlidirlər. Göstərilən problemlərin bir çoxu tədris planlarının və proqramlarının hazırlanması prosesində meydana çıxır.

Təhsil sahəsində aparılan islahatlar nə üçün lazımdır sualına islahatçılar dolğun və məntiqi cavab vermirlər. Hətta islahatın nə demək olduğu elmi və məntiqi şəkildə aydınlaşmır. Hazırda “yenilik” və ya “yeniləşmə” anlayışları və ya təhsilin “modernləşməsi” sualı meydana çıxır. Bunlar müxtəlif məfhumlardır. Məktəblərin modernləşməsinin başlıca səbəblərindən biri də onun dəyişikliklərə uğramış sosial-iqtisadi inkişafa uyğunlaşmasını təmin etməkdir. Müasir dövrdə respublikamızda təhsil sisteminin modernləşməsi məsələsi çox narahatçılıq doğurur. Hazırda orta və ali məktəblərdə həyata keçirilən modernləşmənin konkret problemlərinə nəzər salaq. Təhsilin məzmunu ilə bağlı olan problem son illər orta və ali təhsilin siyasi, iqtisadi, sosial dəyişikliklərə məruz qalan müasir insanların tələblərinə uyğun şəkildə qurmaq məsələsi ilə bağlıdır. İkinci problem təhsilin keyfiyyəti ilə əlaqədardır. Orta təhsilin modernləşməsini hansı yollarla həyata keçirmək olar? Təhsil sistemini prinsipal surətdə dəyişərək, tədrisin struktur və metodlarının yenidən qurulmasının zəruriliyini hesab edənlər böyük təhlükə yaradırlar. Bu halda məktəb qarşısında müasir insanların qoyduğu yeni məsələləri həll etmək lazım gəlir. Bu cür cəhdlər tariximizdə artıq olmuş və uğursuzluqla nəticələnmişdir.

Aparılan statistik araşdırmalara görə ali texniki məktəblərə daxil olan tələbələrin 80-85%-i gələcək peşələrinə yalnız diplom almaq xatirinə yiyələndiklərini bildirirlər. Hətta bu tələbələrin təxminən 70-80%-dən çoxu peşə seçimlərindən narazıdırlar. Bu xoşagəlməz problemlərdə başlıca rol oynayan amillərdən biri də qəbul imtahanı ilə bağlı olan strukturun düzgün qurulmamasıdır. Bu göstərilən faktların hamısı nəticədə mənasız xərclərə və faciələrə gətirib çıxarır. Ali texniki məktəblərə gələn tələbələrin peşə seçimi orta məktəbdən başlayır. Buna görə də ali texniki məktəbləri seçən tələbələr universitetdə tədris olunan riyaziyyat kursunu qavramağı bacarmalıdır. Texniki məktəblərdə təhsilini uğurla davam etdirmək üçün tələbələrdə ümumi riyaziyyata maraq oyatmaq; tədris zamanı sərbəst iş təcrübəsi qazandırmaq; özünü qiymətləndirmə keyfiyyəti aşılamaq lazımdır. Təhsilin yenidənqurma ilə bağlı riyaziyyat kursunun tədrisində tələsmək ölkənin riyaziyyat təhsilinə ciddi zərər yetirdi və ali texniki məktəblər arasında rəqabətin azalması özünü göstərir. Daha doğrusu, orta məktəblərdə riyaziyyata maraq azaldı və peşəkarlar elə ixtisas seçdilər ki, orada riyaziyyat öyrənilmir. Üçüncü amil isə repetitorluğun geniş vüsət almasıdır. Orta məktəb zəruri biliklər vermədiyindən, imkanlı ailələr repetitorlara müraciət edirlər. Bu halda texniki məktəblərə qəbul olunan abituriyentlər arasında bərabər olmayan imkanlar yaranır.

Orta məktəblərdə yaranmış bu acınacaqlı vəziyyətin əsas səbəblərindən biri də yeni orta məktəb proqramının çatışmazlığı, ikincisi isə, tədris vəsaitlərinin aşağı olması, bəzi fənlər üzrə buraxılış imtahanlarının ləğv olunmasıdır. Araşdırmalardan məlum olub ki, orta məktəblərin bir çoxu riyaziyyat üzrə təzə məktəb proqramının çətinliklərini və ziddiyyətlərini dəf edə bilmirlər. Ali texniki məktəblər gələcək mütəxəssislərin, tədqiqatçıların və istehsalat rəhbərlərinin müasir tələblərə uyğun hazırlanmasına daha da məsuliyyətlə yanaşmalıdırlar. Ali texniki məktəblərdə riyaziyyatın tədrisi üçün tədris yükü artırılmalı və əlavə saatlar nəzərdə tutulmalıdır. Gələcək bakalavr yüksək səviyyəli peşəkar kimi riyaziyyat kursunun öyrənilməsinə nail olmaq üçün nəzəri biliklərdən başqa, həm də praktik vərdiş və bacarıqlara üstünlük verməlidir. Hazırda ali texniki məktəblərə daxil olan tələbələr qarşısında duran məsələlərdən biri də abituriyentlərin biliklərindəki çatışmazlıq və boşluqların heç olmasa qismən aradan qaldırılmasına imkan verən tədbirlərin kompleks həyata keçirilməsidir. Riyaziyyat kursu üzrə orta məktəb məzunlarının biliyi daha formal xarakter daşıyır. Həndəsə fənni üzrə işlər xüsusilə pis vəziyyətdədir. Orta məktəb məzunlarının həndəsədən bilikləri keyfiyyətli olmadığı üçün onlar ali texniki məktəblərdə “Tərsimi həndəsə və mühəndis qrafikası”, “Maşın və mexanizmlər nəzəriyyəsi”, “Materiallar müqaviməti”, “Riyaziyyat”, “Nəzəri mexanika” və s. fənlərin tədrisində çox böyük çətinliklərlə üzləşirlər.

İnformasiya texnologiyaları sferasında maddi-texniki bazanın müəyyən səviyyədə qurulması bu gün üçün çox vacib məsələdir. Sevindirici haldır ki, dövlətimiz də hökumətimiz tərəfindən bu sahəyə böyük diqqət yetirilir. Bu problemlərin yüksək səviyyədə həllində həm də zaman rol oynayır. Şübhəsiz ki, ali təhsil müəssisələrində kadr siyasətinin formalaşdırılması və təhsilə ayrılan resurslardan səmərəli istifadədən başqa, əlavə maliyyə vəsaitlərinin əldə olunması problemlərini həll etmək, çıxış yollarını tapmaq və reallaşdırmaq bu gün üçün mühüm əhəmiyyət kəsb edir.

İstər orta, istərsə də ali təhsil məktəblərində aparılan islahatlar davam edir. Təhsil prosesinin mərkəzində dayanan və mühərrik hesab olunan müəllimin rolu yüksəlir və onun peşəkarlıq keyfiyyətlərinə olan tələblər artır. Bununla belə həm texniki universitetlər, həm də müəllimlər qarşısında çətinliklər də vardır və həmin problemlər kifayət qədər diqqət mərkəzində deyil. ■

*(əvvəli 20 iyul 2018-ci il tarixli sayımızda)*

# Unudulmaz el şairi



**Ulu türk yurdu Göyçə mahalı. Qədim zamanlardan bəri bu torpaqda yaşayıb yaratmış saz-söz ustaları aşıq sənətinə yenilməzlik gətirmiş, qopuzun varisi olan sazı əsrlər boyu yaşatmışlar. Bu mahalın hər bir ağsaqqalının, ağbirçəyinin sinəsində neçə-neçə nağıl, əfsanə, dastan, nəğmə, bayatı yurd salıb. Qədim tarixə, zəngin mədəniyyətə malik Göyçə elinin şifahi xalq ədəbiyyatı nümunələrindəki mifoloji varlıqlar haqqında inancların kökü qədim dövrlərə gedərək tanrıçılıq, şamançılıq dünyagörüşünə söykənir. Əsrlər, qərinələr ötüb keçsə də, ayrı-ayrı zamanlarda yaranmış əfsanələr, miflər, əsatirlər bu elin genetik qan yaddaşında yaşayır və nəsildən-nəslə ötürülür.**

Bineyi-qədimdən saza-sözə həssas olan göyçəlilər ayrı-ayrı hadisələrin, tarixi şəxsiyyətlərin timsalında çoxlu əfsanə, mif, əsatir yaratmışlar. Azərbaycan mədəniyyət tarixində əvəzolunmaz yeri olan Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Növrəs İman, Aşıq Qurban, Aşıq Nəcəf kimi onlarla el şairlərinin yaratdıqları əfsanə və miflər bu gün də el aşıqlarının sazında, sözündə yaşayır. Göyçə ab-havasında doğulub böyüyənlər bu əbədi, əzəli ənənəni indi də ləyaqətlə davam etdirirlər. Belə davamçılardan biri də xalq arasında el şairi kimi tanınıb sevilən şair Zəki İslamdır.

Aşıq Ələsgər dəsti-xəttinin davamçılarından olan, gözəl şeirlər müəllifi, dəyərli ziyalı, el ağsaqqalı Zəki İslam 1939-cu ildə Göyçə mahalının Krasnoselo rayonunun Cil kəndində ziyalı ailəsində anadan olub. Kirovabad (indiki Gəncə—red.) Dövlət Pedaqoji İnstitutunu və Kirovabad Dövlət Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra uzun müddət doğma rayonunun kolxoz və sovxozlarında rəhbər vəzifələrdə çalışıb.

Lakin dinimizi, adət-ənənələrimizi, folklorumuzu dərindən bilən Zəki İslam hər kəsin yaddaşında saz-söz xiridarı kimi yer tutub. Vətən həsrətindən, yurd intizarından, milli-mənəvi dəyərlərimizdən bəhs edən saysız-hesabsız şeirlər müəllifinin indiyə qədər bir neçə kitabı işıq üzü görüb. "Göyçənin tonqalı sinəmdə yanır", "Əlim Tanrı ətəyində", "Ziyarətgahların mənim", "Dünya nura bələndi", "Qətli-mərhəb, Fəthi xeybər Əlidi", "Məktublar, cavablar, yeni şeirlər", "Hər bir sözün əvvəlində", "Seçilmiş əsərləri", "Dinim Məhəmməd dinidi"," Dini əsərlər", "Haqq yerindədi", "Karvanım yoldadı" və s. kitablarında şairin el, oba, yurd, təbiət, gözəllik duyğuları öz əksini tapıb.

Taleyinə yazılan qaçqınlıq qisməti ilə heç vaxt barışmayan, Göyçə deyəndə ürəyi sızım-sızım sızıldayan şair qoynunda dünyaya göz açdığı əziz, müqəddəs yerləri bir an belə unuda bilmir, saf, büllur Göyçə gölünün nəğməli sahillərindən, hər qarışında ayaq izləri olan ata-baba yurdundan, onun əsrarəngiz təbiətindən həsrətlə danışırdı. Ulu Göyçə üçün alışıb yanan Zəki İslam doğma yurdunu bütün yaradıcılığı boyu vəsf etmişdi. Şair şeirlərinin birində deyirdi:

*Biz pürkəmal ustadları gözlərik,*
*Nəvəsiyik, izləmişik, izlərik.*
*Göyçədə yaşayan bizik, bizlərik,*
*Dağlar köçməz, köçməyəcək Göyçədən.*

Yaradıcılığının ilham mənbəyi olan Göyçəyə ruhən bağlı olması məhəbbəti, onun bütün əsərlərində hiss olunur. Göyçə həsrəti onu içindən yandırır, qəlbinin sızıltıları sarı simini dilləndirirdi. Bu həsrət taleyinə didərginlik düşmüş şairin yaradıcılığının ana xəttini təşkil edir, dönə-dönə bu mövzuya qayıdaraq "Göyçə" dastan-poemasını, Göyçənin poetik obrazı da məhz bu sevgidən, nisgil yaranır. Şair bu nisgilin içində öz taleyini də doğma yurdum taleyi ilə birgə yaşayır.

Şairin yaradıcılıq palitrası çox zəngin və rəngarəngdir. O, yalnız Göyçə mövzusunda deyil, dini mövzularda da uğurlu poetik nümunələr yaratmışdır.

Müqəddəs yerləri ziyarət edən, dünyamıza, həm empirik, həm də dini nəzərlərlə baxan şairin xarakterik cizgilərdən olan insanpərvərlik, dinə etiqad həm də onun poetik portretini tamamlayır. Estetik dəyəri, fəlsəfi yükü ilə zəngin olan əsərlərində insanın mənəvi zənginliyini özünün poetik əsərlərində böyük məhəbbətlə tərənnüm edirdi. O, bütün əməllərində, yaradıcılığında uca Yaradana tapınır, dinimizi, etiqadımızı hər şeydən üstün tuturdu.

Taleyinə çox keşməkeşlər, enişlər-yoxuşlar düşüb Zəki İslamın. Lakin o, öz sadəliyini, bu sadəliyin fövqündə ulu Tanrıya, peyğəmbərə, vətən yolunda canını fəda edən şəhidlərə, elinə-gününə böyük sevgisini qoruya, onu müqəddəs tuta və yaratdıqlarına olan sevgisini həyatının qayəsinə çevirməyə müyəssər olub. Və bütün ömrünü bu qayə ilə yaşayıb yaradıb.

El-obanın yaxşı gününü, dar gününü dəyərli məsləhətləri, səxavəti ilə el ağsaqqalı, nurani siması, şux, əyilməyən qaməti ilə yaddaşlara əbədi həkk olunan el oğlu idi Zəki İslam, onu tanıyanların qəlbində həmişə yaşayacaq.

**Oruc GÖYÇƏLİ,**
**şair, AYB-nin üzvü, "Qızıl qələm" mükafatı laureatı.**

# Dövlət Sərhəd Xidməti mətbuat mərkəzinin məlumatı

Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş məqsədyönlü əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində son günlərdə narkotik vasitələrin qeyri-qanuni gətirilməsi cəhdinin qarşısı alınmışdır. Belə ki, 2019-cu il yanvarın 15-də, saat 18:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin texniki müşahidə məntəqəsi tərəfindən Lənkəran rayonunun Qamışovka və Siyavar kəndləri istiqamətində sahildən 12.7 mil aralı naməlum üzmə vasitəsinin Azərbaycan Respublikasının dəniz sektoruna daxil olması müşahidə edilmişdir. Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisi hədəfi izləyərkən o, sürətlə cənub istiqamətinə doğru hərəkət edərək, ərazi sularımızı tərk etmişdir. Naməlum üzmə vasitəsinin hərəkət koordinatlarına baxış zamanı dənizdə buya bərkidilmiş 1 ədəd bağlama içərisində tünd qara rəngli bərk halda çəkisi 995 qr olan narkotik vasitə "tiryək" aşkarlanaraq götürülmüşdür.

2019-cu il 17-20 yanvar tarixlərində, saat 20:50 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Arus kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsinin müqabilində İran İslam Respublikasında atışma səsləri eşidildiyi üçün sərhəd zastavası "silaha" komandasına qaldırılaraq həmin sahə istiqamətində hərəkət etmişdir. Qeyd olunan ərazi dərhal qapadılaraq ətrafda axtarış tədbirləri keçirilmiş və nəticədə 2 ədəd rəngli çantanın içərisində 6 kq 100 qr "heroin", 1 kq 800 qr "metamfetamin", 200 qr "tiryək" və qayalıqların arasında gizlədilmiş halda 2 ədəd bağlama içərisində 14 kq 850 qr "tiryək" və 6708 ədəd "metadon-40" həbi aşkar edilərək götürülmüşdür.

2019-cu il 20 yanvar tarixində "Astara" dövlət sərhədindən buraxılış məntəqəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına gələn İİR vətəndaşı 1983-cü il təvəllüdlü Bani Bayrami Maghsood Rezaghilinin üzərinə baxış keçirilərkən daxili orqanlarından 71 qr "metamfetamin" və 137 qr narkotik maddə olan "heroin" aşkar olunmuşdur. Narkotik vasitələrin sifarişçisinin müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 2019-cu il 21 yanvar tarixində Azərbaycan Respublikasının vətəndaşları Masallı rayon sakinləri 1969-cu il təvəllüdlü Hüseynov Mikayıl Mürvət oğlu və 1972-ci təvəllüdlü Əliyev Eldar Şakir oğlu saxlanılmışlar.

2019-cu il 23 yanvar tarixində, saat 00:53 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Bala-Bəhmənli kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədini pozaraq İrandan Azərbaycana keçmiş Beyləqan rayon sakini əvvəllər məhkum olunmuş 1987-ci il təvəllüdlü Qəhrəmanov Elməddin Seyfəddin oğlu sərhəd pozucusu qismində saxlanılmışdır. Sərhəd pozucusunun üzərinə baxış keçirilərkən 1 ədəd selofana bükülmüş halda 1080 qr "kokos" tərkibli narkotik maddə, 5 qr "marixuana" və 1 ədəd mobil telefon aşkar olunaraq götürülmüşdür.

Qeyd olunan faktlar üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# ZAQATALADA EPİZOOTİYA ƏLEYHİNƏ PROFİLAKTİK TƏDBİRLƏR

**2019-cu ilin ilk günlərindən başlayaraq Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti (DBX) ölkə ərazisində "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirlər planı"na uyğun olaraq iti yoluxucu xəstəliklərə qarşı profilaktik peyvəndləmə, diaqnostik müayinə, dehelmentizasiya, dezinfeksiya, dezinseksiya və digər tədbirlərin aparılmasına start verib. Aparılan tədbirlər çərçivəsində Zaqatala Rayon Baytarlıq İdarəsi rayon ərazisində mülkiyyət formasından asılı olmayaraq təsərrüfatlarda saxlanılan heyvanlarda iti yoluxucu xəstəliklərin qarşısının alınması istiqamətində epizootiya əleyhinə profilaktik tədbirlər aparır.**

Zaqatala Rayon Baytarlıq İdarəsi tərəfindən 2019-cu ildə 19 sahə baytarlıq məntəqəsi vasitəsilə 62 kənd və 2 qəsəbədə mövcud olan 61013 baş iribuynuzlu, 139816 baş xırdabuynuzlu, 316374 baş quş, 4695 baş təkdırnaqlı heyvan və 3500 baş sahibli itdə profilaktik peyvəndləmə, diaqnostik və seroloji müayinələrin aparılması nəzərdə tutulur.

Hazırda rayonun baytarlıq mütəxəssisləri tərəfindən Car kəndində yerləşən Şahinzadə Orxana məxsus fermer təsərrüfatında 35 baş iribuynuzlu, Aşağı Tala kəndində yerləşən Mehdiyev Rasimə məxsus 60 baş iribuynuzlu heyvanda və rayonun ayrı-ayrı təsərrüfatlarında saxlanılan 59879 baş iribuynuzlu heyvanda və 3709 baş təkdırnaqlı heyvanda qarayara, 1734 baş sahibli itdə quduzluq əleyhinə peyvəndləmə tədbirləri aparılıb. Eləcə də 2533 baş iribuynuzlu heyvandan və 83 baş ana qoyundan brusellyozun müayinəsi üçün qan nümunəsi götürülərək 1260 kvadratmetr sahədə profilaktik, 350 kvadratmetr sahədə məcburi dezinfeksiya işləri görülüb. İribuynuzlu, təkdırnaqlı heyvanlarda və donuzlarda bu tədbirlərin fevralın birinci ongünlüyünə kimi yekunlaşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, 2018-ci il ərzində rayon ərazisində brusellyoz xəstəliyinin aşkar edilməsi, xəstəliyin qarşısının alınması məqsədi ilə 13600 baş iribuynuzlu heyvandan, 3573 baş törədici qoçlardan qan nümunələri götürülərək müayinə olunub. Həmçinin, 59518 baş iribuynuzlu, 3731 baş təkdırnaqlı heyvanlarda qarayara və 3452 baş sahibli itdə isə quduzluq əleyhinə peyvəndləmə aparılaraq 89809 kvadratmetr sahədə profilaktik, 4630 kvadratmetr sahədə məcburi dezinfeksiya, 119 min kvadratmetr sahədə dezinseksiya və 8800 kvadratmetr sahədə deratizasiya işləri aparılıb.

Hazırda iti yoluxucu xəstəliklərə görə respublikada epizootik vəziyyət sabitdir.

**Mətbuat Xidməti.**

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

AÇIQ TENDER ELAN EDİR

Tender 7 (yeddi) lot üzrə keçirilir:

1-ci lot - inventarın satınalınması;

2-ci lot - digər maşın və avadanlığın satınalınması;

3-cü lot - azqiymətli avadanlığın satınalınması;

4-cü lot - çap məhsullarının satınalınması;

5-ci lot - mətbəə işlərinin satınalınması;

6-cı lot - dəftərxana ləvazimatının satınalınması;

7-ci lot - təsərrüfat mallarının satınalınması;

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşagıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, malgöndərənin (podratçının) aidiyyəti işlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra aşağıda qeyd olunan hesaba iştirak haqqı ödəməklə Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30 (əlaqələndirici şəxs: Sədaqət Bayramova; telefon: (+99412) 493-82-66) ünvanından ala bilərlər:

Tenderdə iştirak haqqı:

1-ci lot üzrə - 400 AZN

2-ci lot üzrə - 350 AZN

3-cü lot üzrə - 150 AZN

4-cü lot üzrə - 400 AZN

5-ci lot üzrə - 400 AZN

6-cı lot üzrə - 350 AZN

7-ci lot üzrə - 200 AZN

Adı: Dövlət Xəzinədarlıq Agentliyi

Kodu: 210005

VÖEN: 1401555071

Müxbir hesabı

AZ41NABZ01360100000000003944

S.W.İ.F.T CTREAZ22

Adı: Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

VÖEN: 1701344461

Hesab: AZ91CTRE00000000000004828501

Büdcə gəlirinin təsnifatı kodu: 142340

Büdcə səviyyəsinin kodu fond: 7

Malgödərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

1. Tenderdə iştirak etmək üçün ərizə;

2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);

4. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü, yəni azı 60 (altmış) bank günü olmalıdır);

5. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;

- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;

- Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

Malgöndərənlər (podratçılar) 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 07 mart 2019-cu il saat 15:00-a, 3 və 4-cü bəndlərdə göstərilən sənədləri 18 mart 2019-cu il, saat 17:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 19 mart 2019-cu il tarixdə saat 11:00-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində açılacaqdır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tender Komissiyası.

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## XUAN QUAYDOYA ÖLKƏNİ TƏRK ETMƏK QADAĞAN OLUNDU



Venesuela Ali Məhkəməsinin sədri Maykel Moreno özünü ölkənin müvəqqəti prezidenti elan edən parlament sədri Xuan Quaydo barəsində ehtiyat tədbirlərinin görülməsini təsdiq etdiyini açıqlayıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Maykel Morenonun sosial media vasitəsilə verdiyi açıqlamasında deyilir: "Quaydo ilə bağlı istintaq işi başa çatana qədər onun ölkədən icazəsiz çıxma qadağası, mülkiyyətinin, bank hesablarının və ya Venesuela ərazisində sahib olduğu digər maddi vəsaitlərinin dondurulması ilə bağlı ehtiyat tədbirləri təsdiq edilmişdir".

Qeyd edək ki, Venesuelanın baş prokuroru Tarek Uilyam Saab bir müddət öncə Xuan Quaydoya qarşı ehtiyat tədbirlərinin həyata keçirilməsi üçün Ali Məhkəməyə müraciət etmişdi.

ABŞ prezidenti Donald Trampın milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Con Bolton Venesuelanın baş prokurorunun bu addımını belə cavablandırıb: "Venesuelanın qeyri-qanuni sabiq baş prokurorunun dövlət başçısı Xuan Quaydoya olan hədələrini rədd edirik. Bir daha təkrar edirəm: Venesuelada demokratiyanı pozmağa və Quaydoya zərər verməyə çalışanları ciddi nəticələr gözləyir".

Venesuela parlamentinin sədri Xuan Quaydo isə jurnalistlərə verdiyi açıqlamasında deyib: "Həbslə təhdid edilməyi əhəmiyyətsizləşdirmirəm, lakin bu ölkədə heç nə yeni deyil".

## ABŞ QOŞUNLARINI ƏFQANISTANDAN ÇIXARA BİLƏR



ABŞ-la "Taliban" arasında sülh danışıqlarının cari il fevralın 25-də başlamasına dair müvəqqəti razılıq əldə edilib. "Report" agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bunu Qətərin Xarici İşlər Nazirliyindən bildiriblər.

Məlumata əsasən, 6 günlük müzakirələrdən sonra razılıq layihəsi əldə edilib. Layihədə sənəd imzalandıqdan sonra 18 ay ərzində ABŞ hərbçilərinin Əfqanıstandan çıxarılacağına dair maddə öz əksini tapıb.

Verilən xəbərə görə, ABŞ-ın Əfqanıstan üzrə xüsusi təmsilçisi Zalmay Xəlilzad yanvarın 26-da Qətərin paytaxtı Dohada danışıqların 6 gün sürdüyünü və müzakirələri davam etdirmək üçün Əfqanıstana gedəcəyini açıqlayıb.

Eyni zamanda, "Röyters" agentliyi bildirib ki, Əfqanıstan hakimiyyətinə ABŞ-la "Taliban" arasında ilkin razılıqla bağlı məlumat verilib.

Razılaşma layihəsində aşağıdakı maddələr öz əksini tapıb: ABŞ 18 ay ərazində hərbi bazası da daxil olmaqla qoşunlarını Əfqanıstandan çıxarır; "Taliban" İŞİD və "Əl-Qaidə"nin Əfqanıstan ərazisinə keçməsinin, onların ABŞ-a və müttəfiqlərinə hücum etməsinin qarşısını alır; "Taliban"a hakimiyyətdə təmsil olunmaq barədə təminat verilib; "Taliban" Əfqanıstan ərazisindən Pakistana qarşı istifadə edilməyəcəyinə təminat verməlidir.

## HÜRRƏM SULTANIN ETNİK MƏNŞƏYİ BARƏDƏ MÜBAHİSƏLƏR BİTMİR



Ukraynanın Türkiyədəki səfirliyinin xahişi ilə Süleymaniyyə məscidində dəfn edilən Sultan Süleymanın həyat yoldaşı Roksolananın rus mənşəli olması barədə məlumat turistlər üçün nəzərdə tutulmuş izahat mətnindən silinib. Bu barədə "Sputnik" informasiya agentliyi məlumat yayıb.

Ukraynanın Türkiyədəki səfirliyinin "Facebook" səhifəsində qeyd edilib: "Mütəmədi olaraq tarixi həqiqətləri bərpa edirik. Səfirliyin müraciətinə əsasən Süleymaniyyə məscidində onun dəfn edildiyi yerdə türk tərəfi izahat mətnindən Sultan Süleymanın həyat yoldaşı Roksolananın rus əsilli olması barədə olan məlumatı silib".

Roksolananın əsl adı və doğum tarixi məlum olmasa da, tarixçilərin fikrincə, Ukrayna əsilli olan cariyə, İslamı qəbul etdikdən sonra Hürrəm adı ilə Sultan Süleymanın həyat yoldaşı və II Sultan Səlimin anası olub.

Məlumata əsasən, Hürrəmin hərəmxanaya düşdüyü zamana qədər olan həyatı barədə sənədli mənbə yoxdur. Lakin ədəbiyyatda onun milliyəti barədə müxtəlif əfsanələr yaranıb.

Bəzi mənbələrə görə, onun adı Anastasiya və ya Aleksandra Qavrilovna Lisovskaya olub və Ukraynadan olan provaslav kahinin qızı imiş.

Digər versiyaya görə isə o, Ukraynanın Xmelnitsk diyarında doğulub. Məlumata görə, qızın 15 yaşı olanda Krım tatarlarının hücumu zamanı əsir düşüb və bir neçə dəfə satıldıqdan sonra Sultan Süleymana hədiyyə edilib.

## İRAN PREZİDENTİ: ƏN BÖYÜK İQTİSADİ TƏZYİQLƏ ÜZLƏŞMİŞİK



İran prezidenti Həsən Ruhani və ölkənin ali dini lideri ayətullah Əli Xamenei inqilabın 40-cı ildönümü münasibətilə inqilab lideri ayətullah Ruhullah Xomeyninin paytaxt Tehrandakı məzarını ziyarət etdiblər. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Həsən Ruhani ziyarət zamanı etdiyi çıxışında ABŞ-ın İrana tətbiq etdiyi sanksiyalara münasibət bildirib.

ABŞ-ın İrana qarşı son iqtisadi müharibəsinin 2018-ci ilin yanvarında başladığını, lakin siyasi, hüquqi və psixoloji cəhətdən regional, eləcə də beynəlxalq səviyyədə uğursuz olduğunu bildirib. "İnqilabdan sonrakı ən böyük iqtisadi təzyiqlərlə üzləşirik. Xalqın qeyrət, fədakarlıq və müqavimətilə ABŞ iqtisadi müharibədə də məğlub olacaq", - deyə İran prezidenti vurğulayıb.

Bir neçə ölkədən başqa bütün dünyanın ABŞ-a qarşı İranı dəstəklədiyini qeyd edən Həsən Ruhani deyib: "ABŞ təkcə İrana qarşı deyil, Avropa Birliyi, Çin və Şimali Amerika Azad Ticarət Sazişi ilə bağlı öhdəliklərini də pozub".

Eyni zamanda, İran prezidenti ölkənin bugünkü problemlərinin əsasən Vaşinqton rəhbərliyi və onun davamçılarının təzyiqlərindən doğduğunu dilə gətirib.

Həsən Ruhani müzakirələrin siyasi, əxlaqi və hüquqi uğurunun heç bir zaman yox olmayacağına işarə edərək vurğulayıb: "Heç kim ABŞ İran ilə danışıqlar masasına oturdu, lakin sözünə sadiq qalmadı deməsin. Əsas məsələ qarşı tərəfin nə qədər sözünə sadiq qalacağı deyil, danışıqlardakı prinsiplərdir".

## BRİTANİYA PARLAMENTİ TEREZA MEYİN TƏKLİFİNİ QƏBUL ETDİ



Böyük Britaniyanın Avropa İttifaqından ayrılma prosesi gərgin şəraitdə davam edir. Ölkənin baş naziri Tereza Meyin yenidən parlamentə təqim etdiyi "Brexit"lə bağlı təklifi qəbul edilib. Bu barədə "TRT" telekanalı xəbər verib.

Təklifə görə Böyük Britaniya Avropa İttifaqından müqaviləsiz ayrılmayacaq. Təklifdə həmçinin Britaniyanın hər hansı bir razılığa gəlmədən martın 29-da Aİ-dən ayrılmaması tələb edilir.

Qəbul edilən ikinci təklif "backstop", yəni "tədbir maddəsi" deyilən və Şimali İrlandiya ilə İrlandiya Respublikası arasında fiziki sərhədin yaradılmasının qarşısını alan tənzimləmədir. Bunun əvəzinə alternativ tənzimləmələr üçün Aİ ilə müzakirələr aparılacaq və iki İrlandiya arasında fiziki sərhədin olmasının qarşısı alınacaq.

Səsvermədən sonra açıqlama verən baş nazir nəticələri nəzərə alacağını və Avropa İttifaqı ilə danışıqlarda bu fikirləri müzakirə edəcəklərini bildirib. Bundan sonrakı mərhələdə Böyük Britaniya Avropa İttifaqı ilə yeni danışıqlara başlayacaq.

Eyni zamanda, verilən xəbərə görə, Tereza Mey fevralın 13-nə qədər Aİ ilə yeni bir razılaşma əldə edə bilməsə, 14 fevral tarixində parlamentdə yeni bir təklif ilə çıxış edəcək. Lakin Aİ yeni müzakirələrin tərəfdarı deyil.

## AMERİKALILARIN ÇOXU ÖLKƏDƏKİ VƏZİYYƏTDƏN NARAZIDIR



Amerikalıların 63 faizi ölkədə vəziyyətin inkişafından narazıdır və onun yanlış istiqamətdə hərəkət etdiyini düşünür. "Report" agentliyinin Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bunu "The Wall Street Journal" qəzeti və "NBC" teleşirkətinin birgə apardığı sosioloji sorğunun nəticələri göstərir.

Sorğuda iştirak edənlərin, təxminən, 68 faizi ABŞ-da baş verən hadisələrə münasibətini bildirərkən mənfi dəyərləndirməli söz və ifadələrdən - "fəlakət", "pisləşmə", "qarışıqlıq", "ağır dövrlər" və s. istifadə edib.

Eyni zamanda, verilən xəbərə görə, bir ay əvvəl keçirilmiş analoji sorğu zamanı narazı olanlar 56 faiz təşkil edirdi.

Sosial araşdırma ölkədə büdcə böhranı səbəbindən federal hökumətin fəaliyyəti hələ dayanan dövrdə aparılıb. Federal hökumətin işi yalnız ABŞ prezidenti Donald Trampın ötən həftə hökumət idarələrinin fevralın 15-dək fəaliyyətinə maliyyə vəsaiti ayırılması barədə qanun layihəsini imzalamasından sonra bərpa olunub.

Donald Trampın şəxsi reytinqi isə dekabrdakı sorğu ilə müqayisədə dəyişməz qalıb: amerikalıların 43 faizi prezidenti dəstəkləyir, 54 faizi isə ona qarşı çıxır. ■

# Azercell-dən sahibkar xanımlara dəstək



Ölkəmizdə sahibkarlıq ekosistemini inkişaf etdirmək və biznes sahəsində yeniliklərə təkan vermək məqsədilə "Azercell Telekom" MMC tərəfindən 2009-cu ildə yaradılan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi daha bir layihəyə dəstək verir. Mərkəz təhsil sahəsində ixtisaslaşan "Education HUB"ın təşkilatçılığı və ABŞ-ın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə baş tutan "Sosial Sahibkarlıq Laboratoriyası" proqramında yaxından iştirak edir. Belə ki, layihə çərçivəsində Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində təcrübə klinikası təşkil olundu. 2 gün davam edəcək təcrübə proqramında Bərdə, Mingəçevir, Ağdam və Yevlaxdan olan 15 gənc qadın sosial sahibkarlığa dair mövcud imkanlar, maliyyə resursları və bu sahə ilə bağlı digər məlumatları əldə edə biləcəklər. Təcrübə zamanı Azərbaycanda fəaliyyət göstərən bir sıra banklar, eləcə də Coca-Cola şirkətinin nümayəndələri bu istiqamətdə həyata keçirdikləri proqramlarla bağlı məlumatı iştirakçılarla bölüşəcəklər. Bundan əlavə, səfər çərçivəsində 4 regionu təmsil edən xanımlar Barama İnnovasiya və Sahibkarlıq Mərkəzindəki startap layihələri ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər. İştirakçılar həmçinin sosial sahibkarlıq sahəsində təcrübə qazanmış şəxslərlə tanış olacaq, biznesin ilk illərində uğursuzluqdan qaçmağın yolları mövzusunda müzakirə aparacaqlar.



Qeyd edək ki, Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi 10 illik fəaliyyəti dövründə uğurlu biznes mühitinin yaradılması və Azərbaycanın rəqəmsal ekosisteminin inkişaf etdirilməsi istiqamətində bir sıra layihələr həyata keçirərək, beynəlxalq tədbirlərə ev sahibliyi edib. Barama hazırda Azərbaycanın əsas startap inkubasiya mərkəzlərindən biridir və PAŞA Bank-ın dəstəyi ilə bu istiqamətdə fəaliyyətini genişləndirir.

## GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ
## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 lot üzrə keçirilir:**
**lot 1** - Layihə-smeta sənədlərinin hazırlanması
**lot 2** - Əsaslı təmir işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Gəncə şəhər H.Əliyev pr.-ti 159 (Əlaqələndirici şəxs: Həsənov Faxrəddin Museyib oğlu, telefon: 022-256-19-54) ünvanından ala bilərlər.

**İştirakhaqqı**
**lot 1 - 100 manat**
**lot 2 - 400 manat**
*Hesab: AZ73AİİB33070019442711898127*
*VÖEN: 2300313061*
*Bank: Kapital Bank ASC-nin Gəncə filialı*
*Kodu: 200275*
*VÖEN: 9900003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T: AİİBAZ2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2019.03.05 saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2019.03.15 saat 17:00-a qədər Gəncə şəhər H.Əliyev pr.-ti 159 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2019.03.18 saat 11:00 tarixində Gəncə şəhəri, H.Əliyev pr 159 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

TƏKRAR

## Azərbaycan Tibb Universiteti 2019-cu il üçün aşağıda göstərilən 1 Lot üzrə
## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 Lot üzrə aparılır:**
**Lot-1.** "Yeni nəsil mulyaj simulyatorlarının alınması"

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər. 1 Lot üzrə görüləcək işlər 2019-cu il ərzində yerinə yetirilməlidir.

Təkliflərin qiymətləndirilməsində və müqayisəsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir.

-texniki şərtlərin yerinə yetirilməsi aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 1 LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Ənvər Qasımzadə küçəsi-14 ünvanda yerləşən Azərbaycan Tibb Universitetindən ala bilərlər.

**Əlaqələndirici şəxs: Əhmədov Tağı Rəcəb oğlu, telefon: 597-42-60**

**Lot-1 üzrə cəmi - 400 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
*Təşkilat: Azərbaycan Tibb Universiteti VÖEN: 1400457111*
*H/hesab AZ96AİİB38060019440137243111*
*Bank: Kapital Bank ASC Nəsimi filialı*
*VÖEN Bank: 9900003611*
*Kod: 200112*
*M/hesabı: AZ37NABZ01350100000000001944*
*S.V.İ.F.T. Bik: AİİBAZ2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*-İddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının işləri yerinə yetirilməsi üçün lisenziya.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunma-lıdır(rus və ya ingilis dilində olan təkliflərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 21 fevral 2019-cu il tarixədək, tender təkliflərini və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 04 mart 2019-cu il saat 17:00-dək Azərbaycan Tibb Universitetinə (Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi-14) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 05 mart 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 1 fevral 2019-cu il tarixli sayında Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyinin dərc olunmuş tender elanında 0,10 faiz rəqəmi 1 faiz kimi və əlaqələndirici şəxs Ramin Yusibov kimi oxunmalıdır.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

**"AZƏRALÜMİNİUM" MMC,**

**45 TONLUQ MAYE METAL MİKSERİNİN TƏMİRİ ÜÇÜN TƏLƏB OLUNAN MAL-MATERİALIN VƏ TƏMİRƏ NƏZARƏT ÜÇÜN SUPERVAYZER XİDMƏTİnin**

satınalınması üçün 2019-01-11 tarixində "Respublika" qəzetində elan edilmiş təkliflər sorğusunun müddətini 2019-02-27 tarixinədək uzadır. Maraqlanan təşkilatlar (050) 205-77-56 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

TƏKRAR

## Ucar Rayon Mərkəzi Xəstəxanası
## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 4 (dörd) lot üzrə keçirilir:**
**Lot-1.** Dəftərxana ləvazimatı və təsərrüfat malları
**Lot-2.** Bərk inventar
**Lot-3.** Avadanlıq
**Lot-4.** Digər maşın və avadanlıq.

İşlərin yerinə yetirilməsi müddəti ilin axırına qədərdir. Tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Ucar şəhəri, Oğuz küçəsi 93-dən ala bilərlər.

**Əlaqə telefonu: (051) 979-88-22**
**Əlaqələndirici şəxs: Rəfail Rəsulov**
**Hər lot üzrə - 200 (iki yüz) manat**
*"Kapital bank"ın Ucar filialı*
*Kod: 200770*
*VÖEN: 9900003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*Ucar Rayon Mərkəzi Xəstəxana*
*H/H AZ25AİİB32051019947700201177*
*VÖEN: 7400068321*
*SWİFT AİİBAZ 2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*—iş qrafiki;*
*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*—iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—maddi-texniki bazası;*
*—mənfəət bəyannaməsi;*
*—iddiaçının son iki ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—iddiaçının son iki ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 28 fevral 2019-cu il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 11 mart 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 12 mart 2019-cu il saat 12:00-da Ucar şəhəri, Oğuz küçəsi-93 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Salyan Rayon İcra Hakimiyyəti
## 2019-cu ildə abadlaşdırma, yolların əsaslı təmiri və mənzil fondundakı binaların əsaslı təmirinin satınalınması ilə əlaqədar

TƏKRAR

## AÇIQ TENDER ELAN EDİR

**Tender 3 lot üzrə keçirilir:**
**Lot-1.** Salyan şəhərində aparılan abadlaşdırma xərclərinin satınalınması
**Lot-2.** Yolların əsaslı təmirinin satınalınması.
**Lot-3.** Mənzil fondundakı evlərin əsaslı təmirinin satınalınması

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Salyan şəhəri, T.Xəlilbəyli küçəsi-126 ünvanından (əlaqələndirici şəxs: Lalayev Mahir İdris oğlu, telefon: 0-21-255-50-23) ala bilərlər.

**Lot-1. 150 manat**
**Lot-2. 150 manat**
**Lot-3. 80 manat**
*Təşkilat: Salyan Rayon İcra Hakimiyyəti*
*(XHK 15004) Salyan YXO*
*Hesab: AZ12AİİB32051029444300201143*
*VÖEN: 7000035491*
*Bank: "Kapitalbank" Salyan filialı*
*Kodu: 200435*
*VÖEN: 9900003611*
*M/H: AZNABZ 01350100000000001944*
*SWİFT BİK AİİBAZ 2X*
**İştirak haqqı heç halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 22 fevral 2019-cu il saat 17.00-a qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə 05 mart 2019-cu il saat 18.00-a qədər Salyan Rayon İcra Hakimiyyətinin tender komissiyasına (ünvan: Salyan şəhəri, T.X.Xəlilbəyli küçəsi-126) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 06 mart 2019-cu il tarixdə, saat 11.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

Xəlilova Səfurə Hüseyn qızının adına məxsus, Yevlax rayonu, Xaldan kəndində yerləşən torpaq sahəsinə verilmiş şəhadətnamə (JN-411A) (kod 90111018) itdiyi üçün etibarsız sayılır.

Məmmədov Hilal Fanıs oğlunun adına məxsus Yevlax rayonu Qoyunbinəsi kəndində yerləşən torpaq sahəsinə verilmiş dövlət aktı (JN 249) (kod 90100028) itdiyi üçün etibarsız sayılır.

Məmmədova Gülnarə Adil qızının adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Çıxarış və Texniki Pasport itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Nərimanov r-nu, Məmməd Araz küçəsi, ev 60).

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən Qaraşov Taleh Azay oğluna məxsus olan Bakı şəhəri, Yasamal rayonu, Parlament prospektində yerləşən ev 2 B, 84 nömrəli mənzilə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (qeydiyyat N 1116082372; qeydiyyat tarixi: 30 noyabr 2016-cı il) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 23 yanvar 1998-ci il tarixli 1 nömrəli qərarı ilə Hirkan qəsəbə sakini Məmmədov Allahverdi Heydər oğluna məxsus həyətyanı torpaq sahəsinə verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 276 F; KOD 80203016) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 4 nömrəli qərarı ilə Şıxakəran kənd sakini Səfərov Nəsir Sadıx oğluna verilmiş Torpağın mülkiyyət hüququna dair Dövlət Aktı (JN 212; KOD 80222028) itdiyi üçün etibarsız sayılır.

Əkbərli Ənnağı Tərlan oğlunun adına Xırdalan şəhər 8 nömrəli tam orta məktəbdən 2011-ci ildə verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

TƏKRAR

## Astara Rayon İcra Hakimiyyəti
## AÇIQ TENDER ELAN EDİR

**Lot 1:** Astara rayonu ərazisində yolların əsaslı təmiri
**Lot 2:** Mənzil Fondunun əsaslı təmiri
**Lot 3:** Astara şəhəri ərazisində abadlıq işlərinin görülməsi
**Lot 4:** Bayram tədbirlərinin təşkili işlərinin görülməsi

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Astara şəhəri, İstiqlaliyyət küçəsi-13 ünvanından (əlaqələndirici şəxs: Məmmədov Rasim, telefon: (025225-11-51) ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1: 150 manat**
**Lot 2: 100 manat**
**Lot 3: 100 manat**
**Lot 4: 100 manat**
*Təşkilat: Astara Rayon İcra Hakimiyyəti*
*Astara Rayon Yerli Xəzinadarlıq Orqanı*
*Hesab: AZ08AİİB32051019447600201176*
*VÖEN: 3700004621*
*Bank: "Kapitalbank" Astara filialı*
*Kodu: 200769*
*VÖEN: 9900003611*
*Müxbir hesabı: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T Bik: AİİBAZ 2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son birildəki maliyyə vəziyyəti haqqındə bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 22 fevral 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 06 mart 2019-cu il saat 17:00-a qədər Astara Rayon İcra Hakimiyyətinin Tender Komissiyasına (ünvan: Astara şəhəri, Azərbaycan küçəsi-13) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07 mart 2019-cu il tarixdə saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

TƏKRAR

## Bərdə Rayon Mərkəzi Xəstəxanası
## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 5 lot üzrə keçirilir:**
**Lot-1.** Dəftərxana ləvazimatı və təsərrüfat malları
**Lot-2.** Yumşaq inventar
**Lot-3.** Bərk inventar
**Lot-4.** Avadanlıq
**Lot-5.** Digər maşın və avadanlıq.

İşlərin yerinə yetirilməsi müddəti ilin axırına qədərdir. Tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bərdə şəhəri, N.Nərimanov küçəsi 12-dən ala bilərlər.

**Əlaqə telefonu: 050 361-56-15.**
**Əlaqələndirici şəxs: Qurban Qasımov**
**Hər lot üzrə 200 (iki yüz) manat**
*Kod: 200372*
*VÖEN: 9900003611*
*M/H AZ37NABZ01350100000000001944*
*Bərdə YXO*
*H/H AZ36CTRE00000000000002125131*
*VÖEN 4000198001*
*SWİFT BİK: AİİBAZ 2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*—iş qrafiki;*
*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*—iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—Maddi-texniki bazası;*
*—Mənfəət bəyannaməsi;*
*—iddiaçının son iki ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 27 fevral 2019-cu il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 7 mart 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 11 mart 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin baş redaktoru, professor Teymur Əhmədov və qəzetin kollektivi İlham Pənahova, əzizi**

**ŞƏHRİYAR MƏMMƏDOVUN**

**vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV

● Çapa imzalanmışdır
02.02.2019